

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan - Çin
münasibətləri uğurla inkişaf edir


3

SƏS
№ 210 (7135)
17 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Rezonans doğuran CİDDİ MESAJLAR


2

# Milli oyanışımızın zirvəsi



6

### Panel müzakirələri: sülh, yaşıl dünya və sağlam qida


15

### Xərçəng və TATU


13

### Kimlərə qulluq etmə müddəti staja daxil deyil?


11

### Öz gözündə tiri görməyənlər üçün master-klass


11

### "Müvafiq ölkələrə yardımı təmin etmək lazımdır" - Xarici qonaq


10

*Ölkə rəhbərimizin öz nitqində konkret hədəfə ünvanlanan ciddi mesajlar verdiyinin dəfələrlə şahidi olmuşuq. Bu mesajları təkcə biz yox, bütün dünya ictimaiyyəti çox yaxşı başa düşür və ölkə rəhbərimizin qətiyyətli mövqeyinə, siyasi iradəsinə zərrə qədər də şübhə edən yoxdur. Əksinə, ünvanlanan mesajları alanların qorxuya düşməsi təsdiq edir ki, vaxtında və qətiyyətlə ünvanlanan ciddi mesajlar çox böyük rezonans doğurmaqdadır.*

# Rezonans doğuran CİDDİ MESAJLAR



## Azərbaycanı öz strateji hədəflərindən yayındırmağın mümkünsüz olduğu qənaətində olanlar artıq öz nəticələrini çıxarıblar

Rəsmi Bakının prinsipial movqeyi bir daha onu deməyə əsas verir ki, Azərbaycan Cənubi Qafqazda geosiyasi iradə sahibir və kənar qüvvələrin istədiklərini etmələrinə imkan verilməyəcək. Heç şübhəsiz ki, regionda maraqları olan qüvvələr də bunu yaxşı başa düşürlər. Yaxşı başa düşürlər ki, ölkəmizə qarşı nə qədər təzyiq kompaniyası aparılsa belə, yenə də nəyə isə nail olmaq inandırıcı deyil. Xüsusən də, ermənipərəst qüvvələr belə görürlər ki, Azərbaycana qarşı heç bir vasitə ilə təsir göstərə bilməzlər və bununla hətta barışmaq məcburiyyətində qaldıqlarını da başa düşmək, görmək xüsusi bir istedad tələb etmir. Daha dəqiq desək, ermənipərəst qüvvələr, beynəlxalq güclər belə əmindirlər ki, ölkəmiz istənilən müqavimətə hazırdır və Azərbaycanı öz strateji hədəflərindən yayındırmaq da qətiyyən alınan deyil.Cənab Prezident İlham Əliyev məhz mövcud reallıqlarla bağlı ciddi mesajlar verdiyi zaman rəsmi Bakının prinsipial mövqeyindən dönmədiyini xatırladır. Ələlxüsus da həmin prinsipial mövqeyi xatırlatmaqla, ilk növbədə Ermənistanın havadarlarına, ermənilərin təəssübkeşlərinə kəskin mesajlarını çatdırır. Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin məhz 8 noyabr tarixində, Zəfər Bayramında söylədiklərinin də ciddi mesajlar olduğunu heç şübhəsiz ki, çoxları yaxşı başa düşüblər və öz hesablarını da gediblər, nəticələrini də çıxarıblar. Dövlət başçımızın siyasi iradəsi onu göstərir ki, Azərbaycanın kifayət qədər potensialı var və rəsmi Bakı öz mövqeyində qətiyyətlidir və bunun artıq hamı fərqindədir. Əlbəttə, hər kəs, xüsusən də ermənipərəst qüvvələr, eləcə də ermənilər özləri də yaxşı dərk edirlər ki, bu qətiyyət, bu siyasi iradə səbəbsiz deyil və Azərbaycanın gücü, qüdrəti ilə bilavasitə əlaqədardır. Sözsüz ki, dövlət başçımızın söylədikləri də bu baxımdan çox ciddi mesajlar sayılır və Azərbaycanı öz strateji hədəflərindən yayındırmağın mümkünsüz olduğu qənaətində olanlar verilən mesajlardan öz nəticələrini də çıxarıblar. Yəni, həmin mesajlar, həmin ciddi mesajlar əhəmiyyətli dərəcədə rezonans doğurub və bunun təzahürünü də hiss etmək heç də çətin deyil.

## Paşinyana qalan yenə də qorxu və həyəcan keçirmək və verilən ciddi mesajların rezonans doğurduğuna hamını əmin etmək oldu

Hadisələrin gedişi göstərir ki, başda erməni baş nazir olmaqla, hayların böyük əksəriyyətinin kürklərinə birə düşüb və onlar qorxu içərisindədirlər. Şəxsən Ermənistanın baş naziri Nikol Paşinyanın keçirdiyi qorxunu da başa düşmək üçün sadəcə hadisələri müşahidə etmək kifayət edir və onun dərhal öz havadarlarına üz tutması həmin qorxunu təsdiq edir. Təsdiq edir ki, artıq Ermənistan bir dövlət olaraq məhz verilən ciddi mesajlardan sonra yenə də havadar axtarırsa, deməli, həmin mesajlar erməni cəmiyyətində əməlli-başlı rezonans doğurub. Əks halda, Paşinyan dərhal Fransa prezidentini aramaz və axtarmazdı. Sözsüz ki, onun belə hövlnak şəkildə Makrona "üz tutması" səbəbsiz ola bilməzdi və Fransa prezidenti özü də bilir ki, bu, ilk növbədə qorxunun əlamətidir. Həm də ermənilərin bacıları görürlər ki, verilən mesajlar erməni cəmiyyətində nə dərəcədə təsirli olub və Nikol bu təsiri, rezonans doğuran təsiri havadar axtarışı, sığınmaq istəyi ilə açıq-aşkar şəkildə biruzə verir."İndi bəzi Qərb havadarları Ermənistandan dırnaqarası "sülh göyərçini" düzəltmək istəyirlər", deyə ölkə rəhbərimizin bəyan etməsi özü çox ciddi mesajdır. Bu həm ermənilərə, həm də onların havadarlarına ünvanlanan mesajdır. Bəli, rəsmi İrəvan hələ də havadarlarından kömək umur və bu mesajdan sonra da dərhal aldığı mesajların təsiri altına düşərək, ilk növbədə Makronun, Fransa prezidentinin ətəyindən tutmağa çalışır. Həm də çalışır ki, həmin ciddi mesajlar fransız bacılarına da çatdırsın və bundan da bir fayda görsün. Amma onu da başa düşür ki, bu, mümkünsüzdür. Əslində, 44 günlük müharibədə öz böyük bacılarına zəng edib yardım, kömək, dəstək istəyən haylar bunu ala bilmədiklərində öz nəticələrini çıxarmalı idilər. Şəxsən Nikol Paşinyan dəfələrlə Rusiya prezidentinə, ardınca da Fransa prezidentinə zəng etdikdən sonra bunun nəticəsiz qaldığından dərs almalı idi. Dərk etməli idi ki, Azərbaycan Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsi qarşısında nəyə isə ümid etməsi mənasızdır. Onun nəyi dərk etməsindən, yaxud da etməməsindən asılı olmayaraq, bu dəfə də eyni şəkildə dərk etmək məcburiyyətində qaldığı yenə də özünü göstərdi. Nikol Paşinyana qalan yenə də qorxu və həyəcan keçirmək, eləcə də verilən ciddi mesajların rezonans doğurduğuna hamını əmin etmək oldu.

## Azərbaycan Prezidenti təkcə erməni cəmiyyətinə, rəsmi İrəvana deyil, bir çoxlarına ciddi mesajlar ünvanlayıb

"Sanki bu 30 illik işğal olmayıb, dağıntılar olmayıb, vəhşilik olmayıb, Xocalı soyqırımı olmayıb", deyə bəyan edən Azərbaycan Prezidenti bununla təkcə erməni cəmiyyətinə, rəsmi İrəvana deyil, bir çoxlarına ciddi mesajlar verib. Şübhəsiz ki, həmin mesajları alanlar da kifayət qədər "təsirlənməli" olublar. Hər halda başa düşüblər ki, öz başlarını kola dürtən, amma quyuğu çöldə qalan quşun misalında hər şeydən xəbərsiz kimi, eyni zamanda, gözəgörünməz kimi göstərməyə çalışanların elə məhz hər şeydən xəbərdar olduqlarını hamı bilir. Bəli, hamı bilir ki, Ermənistan tərəfi ölkəmizi torpaqlarına soxularaq, işğala imza atıblar və düz 30 ilə yaxın müddət ərzində erməni işğalçıları Azərbaycan torpaqlarını işğal altında saxlayıblar. Hamı bilir ki, Xocalı kimi soyqırımı da məhz erməni vandalları, vəhşiləri törədiblər. Xocalı soyqırımının bir insanlıq dramı olduğunu da hamı çox yaxşı bilir. Bunun əksini düşünmək, kimsənin də bu barədə məlumatsız olduğunu zənn etmək də qətiyyən ağıla sığan deyil, çünki həmin hadisə ilə bağlı yetərincə sənədli video və foto materiallar var. Bütövlükdə dünya ictimaiyyətinin diqqətinə məhz həmin insanlıq dramı, ermənilərin törətdikləri vəhşiliklər barədə çatdırılıbsa, bunu olmayan kimi qəbul etmək mümkündürmü? Əlbəttə ki, mümükün deyil. Əgər kimlərsə özlərini bilməməzliyə vururlarsa, bununla bağlı kadrlara tamaşa edə bilərlər, təbii ki, əgər bunlara baxmağa dözərək, dayanaraq, baxa bilsələr.Eyni zamanda erməni vandallarının, vəhşilərinin törətdikləri dağıntılardan da kimlərsə xəbərsiz ola bilməzlər axı. Azərbaycanın tarixi şəhərlərini viran qoyan kim olub? Bəlkə öz-özünə viran qalıb? Yaxud, hansısa təbiət hadisəsi səbəbindən Ağdam kimi bir şəhər darmadağın olub? Bəlkə şəhər və kəndlərimizin, yaşayış məntəqələrimizin viran qoyulduğunu da görmədiklərini iddia etmək istəyən var? Əgər kimlərsə belə bir "həvəsə" düşərək, özlərini görməməz kimi göstərmk istəyirlərsə, gəlib işğaldan azad olunan ərazilərimizə baxa bilərlər. Amma görünür onlar buna maraqlı deyillər və erməni vəhşilərinin törətdikləri dağıntıları gözməzdən gəlmək istəyirlər. Lakin bu da mümkünsüzdür, çünki hər şey göz önündədir və tarixi abidələrimizdən tutmuş, vətəndaşlara məxsus şəxsi evlərə qədər dağıntılar hələ də qalmaqdadır və bu, erməni vəhşiliyinin bir sübutudur. Azərbaycan ərazilərində fauna və floraya vurduqları zərbə də, təbii sərvətlərimizin qanunsuz şəkildə talan edilməsi də danılmazdır. Məsələ burasındadır ki, ermənilərə havadarlıq etmək istəyənlərə cənab Prezident İlham Əliyev bununla bağlı çox ciddi medsajlar verir və bu qədər vəhşiliklərə, qanunsuz əməllərə bir çoxlarının göz yummalarının qəbuledilməz olduğunu bildirir. Ölkə rəhbərimizin dedikləri ciddi arqumentlərlə, faktlarla öz təsdiqini tapdığı halda, erməni havadarlarının bütün "canfəşanlıqları" mənasız olaraq qəbul edilməyə bilməz. Bax elə bunun özü də bir mesajdır. Özü də çox ciddi mesajdır və bu mesajla dövlətimizin başçısı bildirir ki, ermənilərin havadarları ikiüzlülük, ədalətsizlik edirlər və bizə, xalqımıza, Azərbaycana qarşı haqsız davranırlar. Təbii ki, bunun fonunda doğan rezonansı da başa düşməmək mümkün deyil və əgər Nikol Paşinyan kimi bir manipulyator, küçə nümayişlərindən hakimiyyətə gəlmək üçün istifadə edən bir avantüristin təlaşı da anlaşılandır. Hər halda, havadarlarının ikiüzlü olduğu barədə ciddi mesajlardan elə Nikol özü də, erməni cəmiyyəti də bərk "təsirlənib" və doğan rezonansı da bu mənada yaxşı başa düşürük.

## Verilən mesaj Cənubi Qafqazda sülhü, sabitliyi təhdid edən təhlükələrin bu regiondan kənar qüvvələrin maraqlarından qaynaqlandığını göstərir

Dövlət başçımızın, cənab İlham Əliyevin ünvanladığı mesajlardan düzgün nəticə çıxaranlar başa düşürlər ki, əslində, ikinci Qarabağ müharibəsinin, antiterror əməliyyatının nəticələri Ermənistanın bu günə qədər daha düzgün addımlar atması üçün tamamilə kifayət edir. Haylar özləri də hamıdan əvvəl dərk etməli idilər ki, əgər Azərbaycan ədaləti bərpa edibsə və bu yolda rəsmi Bakıya kimsə mane ola bilməyibsə, deməli, bütün başqa cəhdlər mənasız və əbəs yerədir. Bunu mesaj olaraq elə ermənilərin havadarları da başa düşməlidirlər. Başa düşməlidirlər ki, əgər Azərbaycan öz gücü ilə işğala son qoyduğu zaman onlar heç bir şəkildə ermənilərin istəklərinə uyğun olaraq, nəyə isə nail ola bilməyiblərsə, deməli, indiki durumda Ermənistana nə isə vəd etmələri də inandırıcı deyil və ağ yalandır. Ən azından, Cənubi Qafqazda söz sahibinin məhz Azərbaycan olduğu qənaətinə təkcə ermənilər yox, elə onların havadarları da gəlməli idilər və bu qənaətə gəliblər də, hansıki, indi fəaliyyətlərinin mənasız olması barədə də onlara mesajı verilir. Bu mesaj həm də özündə məhz kimlərinsə Cənubi Qafqaza məhz qarışıqlıq yaratmaq üçün soxulduğunu açıq şəkildə bildirir. Cənab Prezident mesaj verir ki, hazırda mövcud vəziyyətlə, reallıqlarla, ölkəmizin yaratdığı reallıqlarla barışmaq istəməyən qüvvələr, anti-Azərbaycan qüvvələr Ermənistanı yeni müharibəyə təhrik etməyə çalışırlar, hansıki bu, Cənubi Qafqaz üçün ən ciddi hərbi-siyasi təhlükə qaynağı olaraq qalmaqdadır. Yəni, kənardan hansısa çirkin niyyətli qüvvələrin dəstək adı altında etdiklərinin müharibəyə rəvac verən siyasət və bunun da qəbuledilməz olduğu mesajı verilir. Bu mesaj həm də o deməkdir ki, Cənubi Qafqazda olan mövcud problemlərin həlli qarşısında duran əsas əngəllər yalnız bu regionun daxilində deyil və sülhü, sabitliyi təhdid edən əsas təhlükələr daha çox bu regiondan kənar qüvvələrin maraqlarından qaynaqlanır.Əslində, ermənilər və onların başında duran baş nazir Nikol Paşinyan verilən mesajlardan nəticə çıxarmalı və başa düşməli idi ki, əgər, ABŞ, Avropa Birliyi və Fransa ədalətli mövqe tutmuş olsaydı, indi Cənubi Qafqazda tamamilə fərqli vəziyyət yaranmış olardı. Təbii ki, məhz ABŞ, Avropa Birliyi və Fransanın ermənipərəst ədalətsiz mövqeyi erməniləri çirkin niyyətlərə, ən azından sülhdən yayınmağa təhrik edir və dövlət başçımızın ünvanladığı mesajlardan bunu da başa düşmək mümkündür. Məhz ermənilər özləri verilən mesajlardan nəticə çıxarmalı idilər ki, onları dırnaqarası da olsa, "cəsarətləndirən" qüvvələr yekun sülh sazişinin, Cənubi Qafqazda sülhü birmənalı şəkildə təmin edəcək sənədin imzalanmasından yayındırırlar. Nəticədə də uduzan tərəf Ermənistan olsa belə, onlar regionda sülh və təhlükəsizliyi təhlükə altında qoyurlar.Göründüyü kimi, ölkə rəhbərimizin, Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin son mesajları reallıqların, özü də təkzibedilməz reallıqların açıq-aşkar şəkildə ifadəsi olaraq görülməlidir. Dövlət başçımızın ünvanladığı mesajlar Ermənistan tərəfinin manipulyasiyalarının mənasız və əbəs yerə olduğunu göstərir. Eyni zamanda bu mesajlarda bir xəbərdarlıq da var və Nikol Paşinyanın dərhal öz böyük bacısı Makrona zəng etməsinin fonunda rezonans doğurduğunu da ifşa edir. Ünvanlanan mesajlar Ermənistanın alət olaraq qəbul edilməsi və regionda sülhə manecilik, əngəl olması baxımından diqqəti cəlb edir. Həm də onu göstərir ki, bütün bunlar, yəni, işğalçı ölkənin alət olaraq qəbul edilməsi məhz Ermənistanın özü üçün daha real təhlükələr vəd edir. Görünən odur ki, ölkə rəhbərimizin ünvanladığı mesajlar tam yerinə düşüb və eyni zamanda da rəsmi İrəvanın, şəxsən Nikol Paşinyanın bunu anlaması fonunda əl-ayağa düşməsi ilə erməni cəmiyyətində, ən azında Ermənistan hakimiyyətində rezonans doğurub.

*İnam Hacıyev*

# Azərbaycan - Çin münasibətləri uğurla inkişaf edir

## YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində noyabrın 16-da Çin Kommunist Partiyası (ÇKP) Nantun şəhər komitəsinin rəhbərliyi ilə görüş keçirilib. Görüşdə dostluq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin inkişafının məmnunluq doğurduğu, qarşıda duran bütün hədəflərin reallaşdırılması üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.***



Bu gün hər iki ölkənin dinamik inkişafı və yüksək nüfuzu ilə dünyanın diqqət mərkəzində olduğu, beynəlxalq münasibətlər sistemində layiqli yer tutduğu və öz mövqelərini davamlı olaraq möhkəmləndirdiyi vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının milli mənafelərə cavab verən uğurlu siyasətinin qanunauyğun nəticəsi kimi, qarşılıqlı inam və etimada, çoxillik əməkdaşlığa əsaslanaraq strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu ikitərəfli münasibətlərin inkişafına yeni dinamizm gətirməklə bərabər, Azərbaycan ilə Çinin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi baxımından da müstəsna əhəmiyyətə malikdir.









Görüş zamanı hər iki ölkənin sosial-iqtisadi inkişafı və gələcəyə yönəlik hədəfləri barədə ətraflı məlumat verilib, bir çox istiqamətlərdə yeni işbirliyi imkanları müzakirə olunub. Azərbaycan ilə Çinin regionlarının yüksək inkişaf səviyyəsinə çatdığı qeyd edilərək ölkəmizin qardaşlaşmış şəhərlər təcrübəsinə malik olması, mədəniyyət, turizm, ticarət və digər sahələrdə faydalı layihələrin həyata keçirildiyi, lakin hələ istifadə olunmamış geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb, xüsusilə də yeni texnologiyaların tətbiqi, müasir infrastruktur quruculuğu və "yaşıl inkişaf"ın təmini istiqamətlərində səmərəli əməkdaşlığın həyata keçirilə biləcəyi vurğulanıb.

Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin aparılmasının partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanması, bir çox məhsuldar görüşlərin keçirilməsi və Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak yaxın dostluq əlaqələrinin daha bir bariz nümunəsidir.




YAP ilə ÇKP-nin hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək məqsədyönlü birgə fəaliyyəti uğurla davam etdirmək niyyətində və yeni uğurlara imza atmaq əzmində olduqları xüsusi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdən sonra YAP nümayəndə heyətinin şərəfinə ziyafət verilib.

Həmin gün "Çjuntyan" elm və texnologiya sərgi salonu və Nantun şəhərinin Nançuanyuan mikrorayonunun partiya üzvlərinə və sakinlərinə xidmət mərkəzi ziyarət olunub.

## "İşğal və təcavüz faktı olmasaydı, Azərbaycan yaşıl transformasiya fəaliyyətində daha böyük nailiyyətlər qazana bilərdi"



İşğal və təcavüz faktı - Ermənistanın ölkəmizə qarşı 30 il ərzində törətdiyi əməllər olmasaydı, Azərbaycan bu gün yaşıl transformasiya fəaliyyətində və tədbirlərində daha böyük nailiyyətlərə imza atmış olardı.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev COP29 çərçivəsində noyabrın 16-da Azərbaycan Televiziyasına açıqlamasında deyib.

Ermənistanın işğalçılıq siyasətinin Azərbaycanın yaşıl transformasiya siyasətinə maneələr yaratdığını, ölkəmizin resurs və hədəflərinin başqa istiqamətə doğru yönəldiyini vurğulayan Prezidentin köməkçisi qeyd edib: "Torpaqlarımız işğaldan azad olunandan sonra Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ və Şərqi Zəngəzur zonası sıfır atıq zonaları kimi bərpa edildi. Bununla da Azərbaycan özünün yaşıl transformasiya və bərpaolunan enerji resurslarının yaradılması siyasətinə daha böyük resurslar ayırmaq imkanı əldə etdi. Bu, həmişə bizim gündəliyimizdə prioritet olub. Lakin işğal və təcavüz faktı aradan qaldırandan sonra Azərbaycan daha böyük imkanlarını bu seqmentə səfərbər etmək imkanı əldə etmiş oldu".

# Böyük Turana doğru

## Bişkekdə TDT dövlət başçılarının sammitində türk dünyası ölkələrinin vahid informasiya məkanı yaradıldı




Türk dünyasının strateji prioritetləri Türk Dövlətləri Təşkilatının (TDT) Bişkekdə keçirilən sammitində Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan liderləri, eləcə də müşahidəçi ölkələrin - Türkmənistan, Macarıstan və Şimali Kipr nümayəndələri tərəfindən müzakirə edilib. Gündəliyə ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, təhlükəsizliyin gücləndirilməsi, rəqəmsallaşma və hətta kosmik tədqiqatlar daxildir. Sammit Bişkek Bəyannaməsi və Türk Sülh Xartiyasının imzalanması ilə başa çatıb. Türk dünyası ilə əlaqələrin inkişafına verdiyi töhfələrə görə Macarıstanın Baş naziri Viktor Orbana "Türk dünyasının ən yüksək ordeni" təqdim edilib. "Türk dünyasının necə inkişaf etdiyini, necə uğur qazandığını görməkdən çox məmnunam. Və inanıram ki, biz hamımız gözəl gələcəyə doğru irəliləyirik", - Orban vurğulayıb.

TDT sammitinin gündəliyi göstərdi ki, üç fundamental sahə ilk növbədə bütün ölkələr üçün vacibdir. Bunlar ideologiya, iqtisadiyyat və təhlükəsizlikdir. Türk dünyasının güclənməsi kimi elan edilən sammitin əsasını məhz bu komponentlər təşkil edir. Azərbaycan prezidenti İlham Əliyev təşkilata maliyyə dəstəyi verməyə hazır olduğunu bəyan edib. "TDT-nin cari büdcəsi məqsədlərimizə çatmaq üçün kifayət deyil. Ümid edirəm ki, UTG Katibliyinə 2 milyon ABŞ dolları və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində dəstəyimiz təşkilatın potensialını gücləndirəcək", - Əliyev qeyd edib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türk İnvestisiya Forumunun yaradılmasını təklif edib. O, həmçinin Türk İnvestisiya Fondunun işinin aktivləşdirilməsini və Türk İnkişaf Bankının yaradılmasını təklif edib.

Qırğızıstan prezidenti Sadır Japarov həmkarlarını Kambarata SES-1-in tikintisində iştirak etməyə çağırıb. "Respublikamızın günəş, külək enerjisi və yaşıl hidrogen istehsalı üçün əhəmiyyətli imkanları var. Qırğızıstan milli səviyyədə və Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlıq çərçivəsində enerji təhlükəsizliyini təmin etmək və enerji səmərəliliyini artırmaq üçün tədbirlər görür. 50-yə yaxın kiçik və orta su elektrik stansiyasının tikintisi üzrə işlər aparılır. Özbəkistan və Qazaxıstanla birlikdə ən böyük "Kambar-Ata-1" SES-in birgə tikintisinə dair razılaşmalar əldə olunub. Fürsətdən istifadə edərək, sizi bu irimiqyaslı layihənin həyata keçirilməsində iştirak etməyə dəvət edirəm", - deyə Japarov bildirib.

O, həmçinin bərpaolunan enerji mənbələrinin inkişafına imkan verəcək TDT çərçivəsində texnologiyalar və yaşıl təşəbbüslər üzrə regional mərkəzin yaradılmasının nəzərdən keçirilməsini təklif edib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan enerji və yaşıl iqtisadiyyat məsələlərinə də diqqət ayırıb. Onun sözlərinə görə, nizamnamə kapitalı 500 milyon dollar olan Türk İnvestisiya Fondu tezliklə fəaliyyətə başlayacaq.

### Hədəf güclü türk dünyasıdır

"Sabah" yazır ki, Türkiyə Prezidentinin Qırğızıstana səfəri türk dünyasını gücləndirmək üçün növbəti addımdır. Türk Xalqları Təşkilatının sammitində ölkələrin liderləri birliyin möhkəmləndirilməsi və yaranan çağırışlarla mübarizə üçün birgə addımları müzakirə ediblər. Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan bu ölkəyə 6 nazirdən ibarət geniş nümayəndə heyəti ilə gəlib. Proqram sıxdır.



Noyabrın 5-də Türkiyə-Qırğızıstan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib. Bu gün Ərdoğan Türk Dövlətləri Təşkilatının Bişkekdə keçirilən 11-ci sammitində iştirak edir. Türkiyə ilə Qırğızıstan arasında - iki ölkə arasındakı münasibətləri hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə gətirən ortaq bəyannamə ilə yanaşı, 19 müxtəlif sahədə sazişlər imzalanıb. İmzalanan sənədlər təhlükəsizlikdən terrorizmlə mübarizəyə, enerjidən səhiyyəyə, təhsilə və mədəniyyətə qədər bir çox məsələləri əhatə edir. Türkiyə Qırğızıstana investisiya yatıran ilk beş ölkədən biridir. Ölkələr ikitərəfli ticarət dövriyyəsini iki milyard dollardan beş milyard dollara çatdırmağı hədəfləyir. Türk inşaat şirkətləri Qırğızıstanda bir milyard dollardan çox layihələr həyata keçirib.

Türkiyə Qırğızıstanda Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Maarif Vəqfi kimi qurumları vasitəsilə də mühüm fəaliyyətlər həyata keçirir. TİKA fəaliyyətə başladığı ilk gündən bu ölkədə 1,3 mindən çox layihə və tədbir həyata keçirib. Ərdoğan budəfəki səfəri zamanı Qırğızıstan Prezidenti Sadır Japarovla birlikdə Bişkekdə TİKA tərəfindən tikilib təchiz edilmiş Qırğızıstan-Türkiyə Dostluğu Dövlət Xəstəxanasının açılışında iştirak edib.

Qeyd edilib ki, Qırğızıstan vaxtında FETÖ-nun güclü olduğu ölkələrdən biri olub. FETÖ ilə mübarizə sayəsində terror təşkilatının fəaliyyətinə ciddi zərbə vurulub. Ərdoğan həmkarı Japarova FETÖ ilə mübarizədə verdiyi dəstəyə görə təşəkkür edib. Bu kontekstdə Maarif Fondunun Qırğızıstandakı təhsil fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Fond ölkədə 2021-ci ildə fəaliyyətə başlayıb və təhsil sahəsində mühüm potensiala nail olub. Türkiyə bütün bu müddət ərzində ölkədə və bütövlükdə regionda sabitliyin təmin edilməsi üçün Qırğızıstana əhəmiyyətli dəstək verib.

Qırğızıstanın sabitliyinə təsir edən əsas problemlər çevriliş cəhdləri və qonşularla sərhəd problemləri olub. Özbəkistan, Qırğızıstan və Tacikistan müstəqillik əldə etdikdən sonra da bu cür problemlər uzun müddət davam edib. Yenə uzun danışıqlardan sonra özbəklərlə qırğızlar arasında münaqişə 2023-cü ildə həll olunub. 2021-ci ildə Tacikistan və Qırğızıstan arasında sərhədlə bağlı mübahisələr böyük müharibəyə səbəb ola biləcək sərhəd toqquşmalarına çevrilib. Türkiyə də iki ölkə arasında sərhəd problemlərinin həlli üçün əhəmiyyətli səylər göstərib.

### Türk dünyasının güclənməsi

Son illər Türk Dövlətləri Təşkilatı əməkdaşlıq və çoxölçülü inteqrasiya sahəsində mühüm addımlar atıb. Assosiasiya hər bir üzv ölkənin sabitliyini təmin etməyə yönəlmiş təhlükəsizlik mexanizmlərini hazırlamağa çalışır. Türkiyə və Azərbaycan Türk Dövlətləri Təşkilatının qlobal və regional siyasətdə təsirinin və potensialının artırılmasına böyük önəm verirlər. Bu baxımdan hər iki ölkənin rəhbərinin təcrübəsi və liderliyi birliyin fəaliyyətində yeni dinamika yaradıb. Eyni zamanda, ölkələrin heç biri digərləri ilə münasibətlərdə hökmranlıq etməyə çalışmır. Türkiyənin və Azərbaycanın, o cümlədən Mərkəzi Asiya ölkələrinin mövqeyi kifayət qədər stimullaşdırıcıdır. Sammitdə türk dünyasının birliyinin gücləndirilməsi və yaranan çağırışlarla mübarizə üçün birgə atılan lazımi addımların müzakirə edilməsi təqdirəlayiqdir.

"Oy Ordo" ekspert təşəbbüsləri mərkəzinin direktoru İqor Şestakov qeyd edir ki, TDT-nin iqtisadi komponenti ideoloji komponentdən xeyli geri qalır. Məsələn, Qırğızıstana Avrasiya İqtisadi Birliyinə uyğunlaşmaq üçün 200 milyon dollar ayıran və Qırğızıstan-Rusiya İnkişaf Fondunu 500 milyon dollara maliyyələşdirən Rusiyadan fərqli olaraq, Türkiyənin iqtisadi gündəmi irəlilətmək üçün hələ kifayət qədər maliyyə resursları yoxdur", Şestakov deyib.

Ekspertin fikrincə, Türkiyə hazırda çətin iqtisadi dövr yaşayır. "Ərdoğan ideoloji məqsədlərin təbliğində əla iş görür, xüsusən də təşkilat ölkələri 34 hərfdən ibarət vahid əlifbanın qəbulu ilə bağlı layihəyə imza atıb, lakin daxili siyasi və iqtisadi vəziyyət bir az gərgindir", - Şestakov təklif edir. Ekspertin sözlərinə görə, Ankara TDT-ni gücləndirmək üçün regionun aparıcı media qurumlarını, universitetlərini və beyin mərkəzlərini birləşdirən şuralar və birliklər yaratmaqla birlik ideyasını fəal şəkildə təbliğ edir. Mədəni əməkdaşlıq da fəal inkişaf edir. Onun sözlərinə görə, Təhlükəsizlik sektorunda Türkiyə Bayraktar pilotsuz təyyarələrini fəal şəkildə tanıtmağa davam etmək niyyətindədir. Ola bilsin ki, "Turan" və ya Türk KTMT-nin ümumi ordusunun yaradılması mövzusu daha da inkişaf etsin. Qərbin, xüsusən də Böyük Britaniyanın geosiyasi maraqları Rusiya və Aİİ-ni Mərkəzi Asiyadan sıxışdırıb çıxarmağa yönəlib.

Buna baxmayaraq, sammitdə imzalanan sənədlər TDT çərçivəsində iqtisadi əməkdaşlığı inkişaf etdirmək istəyindən xəbər verir. Birincisi, 110-dan çox sahəni əhatə edən Bişkek Bəyannaməsidir. Bişkek Bəyannaməsi əsasında il ərzində həyata keçiriləcək tədbirlər planı hazırlanacaq. İqtisadiyyatdan, humanitar və mədəni sahələrdən, hətta kosmosa qədər sahələr var. İmzalanan sənədlər arasında UTC ölkələrinin milli, yəni mərkəzi bankları arasında əməkdaşlıq memorandumu; yaşıl maliyyə haqqında memorandum da var. Prezident Kasım-Jomart Tokayev türk dünyasının vahid informasiya məkanını yaratmaq üçün kabel televiziyalarının qarşılıqlı yayımının təşkilini təklif edib. Dili və kökü bir olan türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, tarixi İpək yolunun yenidən canlanması, təhsil sahəsində yeni əməkdaşlıqların yaradılması, strateji layihələrin həyata keçirilməsi istiqamətində Türk Dövlətləri Təşkilatının rolu danılmazdır.

**V.VƏLİ**

# Yeni müharibə ocağı: Avropa-ABŞ

## Postmüharibə dövrü və "Bordo-Bakı İqtisadi Kompleksinin planları"

***Trampın prezident seçkilərində qalib gəlməsindən sonra Avropa iqtisadiyyatı yeni dövrə hazırlaşır. Avropa mənbələrinin verdiyi məlumata görə, yeni ABŞ administrasiyasının proteksionist siyasəti qlobal iqtisadi artıma mane olacaq və "qoca qitə" buna hazır olmalıdır. Avropa Mərkəzi Bankının rəsmiləri Olli Rehn və Robert Holtzman Avropaya yaxınlaşan ticarət müharibəsi barədə xəbərdarlıq edərək qeyd ediblər ki, Donald Tramp indi ABŞ-ın ticarət kəsirini azaltmaq üçün verdiyi bir sıra vədləri yerinə yetirməyə hazırlaşır. Buna nail olmaq üçün Tramp bütün xarici ölkələrdən idxala 10%, Çindən idxala isə 60% rüsum tətbiq etməklə ticarət maneələrini əhəmiyyətli dərəcədə artırmaq niyyətini ifadə edib.***



### "Bu, qlobal iqtisadiyyat üçün zərərli nəticələrə səbəb ola bilər"

Avropa Mərkəzi Bankının (ECB) İdarə Heyətinin Üzvü və Finlandiya Mərkəzi Bankının Başçısı Olli Rehn gözlənilən bu artımla bağlı danışarkən deyib ki, söz mövzusu əhəmiyyətli idxal tarifləri ola bilər: "Unutmamalıyıq ki, başqa bir ticarət müharibəsi bugünkü geosiyasi rəqabətdə, xüsusən də müttəfiqlər arasında ən son ehtiyacımız olan şeydir".

Ren qeyd edib ki, ticarət müharibəsi başlayarsa, Avropa 2018-ci ildə olduğu kimi hazırlıqsız yaxalanmamalıdır. "Trampın ilk dövründə ABŞ və Avropa arasında ticarət gərginliyi artmağa başladı və Avropa birgə cavab tapmaqda çətinlik çəkdi. Bu dəfə də oxşar səhvə yol verməməlidir", - o əlavə edib. "ECB öz mandatı çərçivəsində bu böyük çətinliklər mənzərəsində iqtisadi və maliyyə sabitliyinin lövbəri rolunu oynamalıdır" deyən Rehn əlavə edib ki, bu məsuliyyəti tam olaraq üzərimizə götürəcəyimizə heç kim şübhə etməməlidir.

"Qiymətlərə yuxarı təzyiq göstərəcək"

Avstriya Mərkəzi Bankının rəhbəri Robert Holzmann Trampın siyasətlərinin ABŞ-da faiz dərəcələrinin və inflyasiyanın artmasına səbəb olacağı və digər ölkələrdə qiymətlərə yuxarı təzyiq göstərəcəyi barədə xəbərdarlıq edib. Holtzman qeyd edib: "Tramp nə danışdığını bilir və yəqin ki, bunu gözlədiyimizdən də tez həyata keçirəcək. Əgər belədirsə, bazarlar nə gözləyir? Faiz dərəcələri və inflyasiya yüksək olaraq qalacaq. Bu, avrozonada inflyasiya üzərində böyük təzyiq yaradacaq. Dollar möhkəmlənərsə və avro ilə paritetə yaxınlaşarsa, bu, idxalın, xüsusilə enerjinin dəyərinə əhəmiyyətli dərəcədə təsir göstərəcək və bu, ECB-nin 2% inflyasiya hədəfinə çatmasını çətinləşdirəcək və bu prosesi potensial olaraq gecikdirəcək".

### Aİ-ABŞ münasibətlərində "qara dəlik"

Birləşmiş Ştatlar Avropanın ən uzunmüddətli müttəfiqi və strateji təhlükəsizlik tərəfdaşıdır. Avropa Parlamenti seçilmiş prezident Donald Trampın yeni administrasiyası dövründə Aİ-ABŞ münasibətlərinin gələcəyini müzakirə edib. Avropa diplomatiyasının rəhbəri Josep Borrell geosiyasi dəyişikliklərin nəticələrinə hazırlıq görməyə çağırıb. Onun fikrincə, Aİ öz taleyinin ağası olmalıdır. "Tramp bütün Çin mallarına 60%-lik gömrük rüsumlarından danışır ki, bu da dünya bazarlarına təsir edəcək. Amerika bazarına çıxa bilməyən Çin malları bizim bazarları doldura bilər. Bəs immiqrasiya siyasəti? Burada mənəvi və humanitar məsələlər var". - Josep Borrell çıxışında bildirib.

Siyasi spektrin liderləri razılaşırlar ki, Trampın irəli sürdüyü "Birinci Amerika" yanaşmasından sağ çıxmaq üçün dialoq çox vacibdir. Gözlənilir ki, ABŞ-ın həlelik "yumşaq siyasəti" işə yaramasa, "qara dəlik" işə düşəcək. Bu da avropalıların proqnozlaşdırmaq istəmədikləri bir vəziyyətlə baş-başa qalmaqları.

1945-ci ildən sonra kartellər dezinformasiya kampaniyalarına yüz milyardlarla dollar sərmayə qoydular, onların əsas məqsədi Avropanın və dünyanın tarixini yenidən yazmaq və bununla da öz dəhşətli keçmişlərinin izlərini silmək idi. Bu kampaniya 2019-cu ildən, Avropa Parlamentinin yeni tarixi yaddaş adlandırılan sənədi təsdiqləməsindən sonra daha da güclənib. İkinci Dünya Müharibəsi isə təcavüzkarı qurbana, qurbanı, yəni Rusiyanı isə işğalçıya çevirdi!

Hər iki (!) dünya müharibəsinin korporativ köklərini gizlədən bu kampaniya Avropanı ələ keçirmək üçün üçüncü cəhdin ilkin şərti kimi xidmət edirdi. Biz bunu bu gün görürük. Bu dəfə siyasi-iqtisadi mexanizmlərin köməyi ilə və Brüssel Avropa İttifaqının bayrağı altında. Ancaq eyni təsir qrupları tərəfindən. Müasir Qərb sivilizasiyası maarifçilik və humanizmi təbliğ edir, söz azadlığına, sosial modelin demokratik prinsiplərinə çağırır. Yalnız sözlə. Amma cəmiyyətin özü eqoist, antidemokratik klientelizm mərhələsindədir və əməkdaşlıq əvəzinə tam qarşıdurma yaradır.

İqtisadiyyat və siyasətdəki təhriflərə görə sosial tarazlığın necə pozulduğunu görürük. Cəmiyyət yalnız şəxsi xeyirlə məşğuldur. Amma insanların həyatının məqsədi harmoniya olmalıdır. Ona görə də Avropanın məqsədi yenilənmək və təbii tarazlığın qorunması olmalıdır. Dünyanın sabitliyi şeylərin və əməllərin tarazlığına əsaslanır. Bəşəriyyət müxtəlif yollarla müəyyən edilə bilər, həm də ağıl və ürək arasında tarazlıq və düşüncə və əməllərin birliyi arzusu kimi. Lakin bütün bunlar müasir Avropa İttifaqı sivilizasiyasına tamamilə yaddır.

Təbiət və materiya qanunları haqqında biliyə malik olsa da, bütün dünyaya tətbiq edilən kapitalist sistemində bu bilik zənginləşmə deməkdir.



### Biz Avropanı qul etmək üçün üçüncü cəhdin şahidi oluruq

Birləşmiş Ştatlar Avropanı məhv etmək və tam tabe etmək məqsədi ilə ona qarşı gizli müharibə aparır. İportal24 yazır ki, bütün bunlar Aİ daxilində təsir qrupları vasitəsilə həyata keçirilir ki, bu da yalnız Amerikanın nəzarətində olan imperiyanın yaradılması üçün pərdə rolunu oynayır. Avropaya qarşı gizli müharibə gedir və onun əsl məqsədi onu məhv etmək, ölməkdə olan Amerika Birləşmiş Ştatları imperiyasına tamamilə tabe etməkdir. Avropa İttifaqı Üçüncü Reyxi quran nasistlər və kartellər tərəfindən yaradılıb. Nasistlər Avropa İqtisadi Birliyinin başlanğıcında idi. Məsələn, Almaniyanın Deutsche Bankı və İsveçrə Beynəlxalq Hesablaşmalar Bankı Auşvitsdə düşərgənin tikintisi üçün bir milyard reyxsmark məbləğində kredit ayırmışdı.

Bzezinka kimi tanınan əsas ölüm düşərgəsinin Auschwitz 2-Birkenau-dan yeddi kilometr aralıda 24 kvadrat kilometr sahəsi olan sənaye kompleksi meydana çıxdı. Bu, o dövrdə IG Farben kartelinin bir hissəsi olan dünyanın ən böyük kimya müəssisəsi idi. Orada hər ay Avropanın hər yerindən gətirilən on minlərlə qul ölürdü. Lakin 1938-ci ildən bu "şirkət"ə neft-kimya və əczaçılıq bazarlarına nəzarət edən 880 beynəlxalq korporasiya (500 alman-fransız və 380 anqlosakson), üstəlik kimya-əczaçılıq kartelinə və nasist maşınına pul yatıran onlarla bank daxil idi. ABŞ-da kartelin American IG adlı rəsmi filialı meydana çıxdı və şirkətin bütün ödənişləri dollarla edildi (markalarla deyil!).

Müharibədən sonra İG seyflərində "Avstriya kimya sənayesinin yenidən təşkili" və "Bordo-Bakı İqtisadi Kompleksinin planları" və ya "Rusiya sənayesinin Almaniyanın nəzarəti altında planlaşdırılması" qovluqlarında mürəkkəb planlar aşkar edilmişdir. Nürnberq məhkəmələrinin və Amerika Konqresinin rəsmi sənədləri aydın şəkildə sübut edir ki, İkinci Dünya Müharibəsi maddi-texniki və texnoloji nöqteyi-nəzərdən təkcə hazırlanmış deyil, ən əsası isə kartellər, ilk növbədə İ.Q.Farben tərəfindən həyata keçirilmişdir. Nürnberqdəki ittihamlar nəticədə sübut etdi ki, IG Farben korporasiyalarının iştirakı olmasaydı, II Dünya Müharibəsi sadəcə başlamazdı!

Avropa İqtisadi Birliyinin formalaşmasında iştirak edən insanlar dairəsinə əsasən Avropanın müharibədən sonrakı quruluşu üçün planlar hazırlamış texnokratlar daxil idi. Ən məşhuru Avropa Komissiyasının ilk prezidenti Valter Hallşteyndir. Bu yüksək rütbəli nasist, məntiqi davamı 2009-cu il Lissabon sazişi olan Roma müqaviləsi adlanan müqavilənin yaradılmasında və imzalanmasında iştirak etmişdir.

Avropa Birliyinin şübhəli və qeyri-demokratik strukturlarının hələ də dayandığı təməl daşı başqa bir nasist, Nürnberqdə məhkum edilmiş hərbi cinayətkar Fritz ter Meer və Karl Vurst (başqa nasist) ilə birlikdə İ.G.Farben tərəfindən qoyulmuşdur. Bu gün Avropa Birliyinin əsas orqanlarında 50 min bürokrat məskunlaşıb, onlara qarşı çıxan bir neçə yüz avropalı deputatlar da siyasi əqidələrinə görə bölünüblər. Və heç kim kartelin digər üzvlərindən (sənayeçilərin dəyirmi masası) danışmır: Du Pont, Schell, Texaco, Standard Oil... Yaxud nasist xeyriyyəçiləri İngiltərə Bankı, Çeyz Manhetten, Bank of New York və bir çox baş- və qüdrət qurbangahında qurban verilir. Avro-Amerika elitaları vədlərə əməl etmir, razılaşmaları pozur, sülh və dostluq haqqında yüksək səslə danışır, sonra da kürəyindən bıçaq vurur. Avro-Amerika elitası sözlə əməl arasında tarazlığın nə olduğunu bilmir. O qüsurludur. Və onun yalnız bir şüarı var: "Kölə et və ya məhv et!"

Avropa anlamır ki, onun əsl düşməni Avropada isteriya körükləyən, Avropa ilə qalan dünya arasında qan tökməyə çalışan ABŞ-dır. Halbuki sivilizasiya yalnız sabitlik, hörmət və alicənablıq əsasında inkişaf edə bilər. Bu prinsiplər universaldır. Konkret sivilizasiyanın texniki inkişaf səviyyəsindən asılı olmayaraq belə olub, var və olacaq. Sivilizasiyanın inkişafının ilkin şərti yalnız bəşəriyyətdir.

İstənilən sistemdə istər kimyəvi, istər fiziki, istərsə də ictimai-siyasi, yəni insani, tarazlıq pozularsa, sistem çökəcək. Bundan başlamalıyıq!

Başqa sözlə, siyasət əslində təbii qanunlara və tarazlığa əsaslanmalıdır. Amma siyasətin səkkiz üzü olduğunu da unutmamalıyıq.

**V.VƏLİYEV**

# Milli oyanışımızın zirvəsi




Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda antisovet xalq hərəkatı təşəkkül tapdı. 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan Azadlıq meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başladı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi Qarabağda yaşayan ermənilərin separatçılıq hərəkatı, yüz minlərlə azərbaycanlının tarixi torpaqlarından uzaqlaşdırılması "Meydan hərəkatı"nın əsasını qoydu. Artıq 70 il hökm sürmüş imperiyanın əsl mahiyyəti hər kəsə aydın idi. Onun buxovlarından xilas olmaq məqamı yetişmişdi. 1988-ci ilin noyabrın 17-də 70 il sovet ittifaqının tərkibində yaşayan xalq bu imperiyaya qarşı etiraz olaraq haqq səsini, azadlıq səsini ucaldıb ayağa qalxdı. Milyonlarla insanın meydana yol alması artıq ölkəmizin həyatında dönüş nöqtəsi idi. Ermənilərin Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başlaması, Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri xalqımızın haqsızlıqlara qarşı barşımaz mövqeyini, iradəsini ortaya qoymuş oldu. Məlumdur ki, 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Ermənistan hökumətinin tapşırığı və göstərişi ilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlının öz ata-baba yurdlarından kütləvi surətdə qovulması, artıq vəziyyətin olduqca gərgin olmasının göstəricisi idi. Öz tarixi torpaqlarından, evəşiklərindən qovulan azərbaycanlılar ermənilərin iyrənc, tükürpədən əməlləri ilə də üz-üzə idilər. Onlara verilən cismani cəza, insanların diri-diri yandırılması erməni vəhşiliyinin nə dərəcədə olduğunu göstərirdi. Əslində, bu əməlləri törədənlər vəhşilər idi. Çox təəssüf ki, ermənilərin tarixdə görünməmiş bu vandalizminə, təcavüzünə ovaxtkı keçmiş SSRİ rəhbərliyi də reaksiya vermirdi. 1988-ci ilin fevralın əvvəllərində Qarabağda ixtişaşlar törətdilər. Azərbaycanın tarixi torpağı olan Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Azərbaycan xalqı etirazını rəhbərliyə çatdırsa da, nə Moskva, nə də Azərbaycanın ovaxtkı rəhbərliyi tərəfindən tədbir görülmədi. Əlbəttə ki, artıq xalqın haqq səsinin ucaldılması zərurəti yaranmışdır. Milyonlarla insanın toplaşdığı "Azadlıq meydanı" bir məslək yolunda olan insanların toplandığı məkan idi. Milyonlarla insanının həmrəyliyi, bir məqsəd uğrunda birləşməsi xalqın böyüklüyünü, eləcə də onun müstəqillik yolunda mücadilə etmək bacarığını ortaya qoydu. Ötən əsrin əvvəllərində azadlığı, müstəqilliyi yaşayan Azərbaycan xalqı bir əsrdə ikinci dəfə bu yolda mücadiləyə qalxdı. Çətin bir yol olsa da, müstəqilliyin böyük nemət olması insanları heç nədən çəkindirmədi. "Azadlıq", "Qarabağ bizimdir" kimi şüarlarla keçirilən mitinqlər Bakını, eləcə də respublikamızın şəhər və rayonlarını bürüdü. Bu, artıq böyük bir oyanış idi. Xalqın müstəqilliyi yolunda oyanışı.

## MİLLİ DÖVLƏTÇİLİYİMİZİN DİRÇƏLİŞİ İSTİQAMƏTİNDƏ İLK BÖYÜK TARİXİ ADDIM

17 günlük "Meydan hərəkatı" Azərbaycanın müstəqilliyinin bərpasında mühüm mərhələ kimi tarixə həkk olunub. 17 noyabr Azərbaycanın tarixi salnaməsində azadlıq hərəkatı, diçəliş günü olaraq yer alıb. Hər il Azərbaycanda 17 Noyabr Milli Dirçəliş gününün qeyd edilməsi məhz tarixi reallıqlara söykənir. Milli Dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir. 17 noyabr hadisəsi sübut etdi ki, Azərbaycan xalqının məqsədi, məramı azadlıq, müstəqillikdir və bu yolda canlar fəda edilsə də, xalq iradəsini qırmaq qeyri-mümkündür.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi və Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Əlbəttə ki, o zaman hələ Azərbaycan imperiyanın tarix səhnəsindən silinməmişdi və Naxçıvanın adından qeyd olunan sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bu, Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük tarixi addım idi. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olunub. Müzakirədən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürülüb. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıb. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

## AZƏRBAYCAN XALQIN MİLLİ OYANIŞ ZİRVƏSİ

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışı Azərbaycan həyatında dönüş nöqtəsi oldu. Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr nəticəsində, ölkəmizdə bütün sahələrdə yaşanılan tənəzzül ölkəni böhran vəziyyətə salmışdır. Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu sayəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev Şəxsiyyət, Siyasi Xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq, Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə böyük sıçrayış baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı, bütövlükdə, uçuruma sürükləyən məqamlar - istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəifləmətməyə başlamışdı. Belə bir zamanda, xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini doğrultdu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Bugünki mövcud vəziyyət, iqtisadi inkişaf, siyasi sabitlik, eləcə də, beynəlxalq aləmdə ölkəmizə inamın və marağın artması, məhz Ulu Öndər Heydər Əliyevin siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışarkən Ümummilli Liderin Azərbaycan Ordusunun qurucusu və yaradıcısı olması faktını da qeyd etməliyik. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı. Ordumuz hərb elminin prinsipləri əsasında yaradıldı, dövlət səviyyəsində hərtərəfli qayğı ilə əhatə olundu, müasir dünya ölkələrinin təcrübəsi əsasında formalaşma yolu keçməyə başladı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin dərin məzmunlu və çoxşaxəli siyasi kursu ilə müstəqilliyimiz daha da möhkəmlənib. Ən əsası da odur ki, indi Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan Zəfər çalmış bir xalq, dövlət olaraq da dünyada tanınır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Ulu Öndərin məhvolma təhlükəsindən xilas edib inkişaf yoluna çıxardığı Azərbaycan dövləti sözün əsl mənasında, daha da möhkəmlənib.

Bəli, 17 noyabr tarixi bir daha göstərdi ki, azad düşüncəli xalqı müstəmləkə altında saxlamaq olmaz. Bu gün Azərbaycan xalqın milli oyanışının zirvəsi oldu. Həmin tarixdən Azərbaycan böyük inkişaf yolu keçdi, iqtisadi gücü yüksəldi, dünyada söz sahibinə çevrildi. Məhz bu güc Azərbaycanı dirçəlişdən Zəfərə doğru apardı. 30 ilə yaxın mənfur düşmən tapdağı altında olan torpaqlarımız azad edildi, xalqımız Zəfər tarixini yaşadı. Bu Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycan tarixinə Zəfər gününü yazdı.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP qələbələr partiyası olduğunu 32 illik fəaliyyətində sübuta yetirib

## Ulu Öndər Heydər Əliyev: "16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum..."

Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixi şəxsiyyətlərin, xüsusilə də liderlərinin müstəsna xidmətləri və rolu var. Lideri olmayan xalq fəlakətə, faciələrə məhkumdur. Bunun əyani sübutu olaraq dünyada dövlətçiliklərini qura bilməyən və daim vətəndaş qarşıdurmaları yaşayan xalqların timsalında görmək olar. Uzağa getmədən iyirminci əsrin əvvəllərində Azərbaycan müstəqillik qazansa da, liderinin olmaması səbəbindən dövlət müstəqilliyini itirməsini misal olaraq göstərmək olar. Allahın lütfü sayəsində Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini 1991-ci ildə qazandı. Təəssüf ki, uzaqgörən şəxsiyyətin, xalqı arxasınca apara biləcək, dövlətini bəlalardan qoruya biləcək liderinin olmaması dövlətçiliyin təhlükə ilə üzləşməsinə səbəb oldu. Demək olar ki, o dövrdə Azərbaycanda hər bir sahədə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Hakimiyyəti zəbt etmiş AXC-Müsavat iqtidarı Azərbaycanın başının üstünü almış qara buludları aradan qaldırmaq, xalqın sarsılmış ümidlərini özünə qaytarmaq gücünə və imkanına malik deyildi. Çünki küçədən hakimiyyətə gəlib, hər bir məsələnin həllini küçə psixologiyasında görürdülər. Bu azmış kimi hakimiyyətdə səlahiyyət bölgüsü uğrunda ağır və kəskin xarakter alırdı. Bundan istifadə edən xarici hərbi, siyasi dairələr Ermənistana dəstək göstərməklə Azərbaycanın torpaqlarını işğal edilməsinə nail olurdular. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdı ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşmişdi. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün xalq bir araya gəlib Böyük Şəxsiyyət, Ümummilli Liderimiz Heydər Əliyevə müraciət ünvanladı. Xalqın Ulu Öndərə sözünü isə ölkəmizin 91 ziyalısı çatdırdı.




### Ziyalıların müraciətindən: "Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz"

1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısının "Səs" qəzeti vasitəsi ilə Ulu Öndər Heydər Əliyevə ünvanladığı müraciətdə Azərbaycanda vəziyyətin son dərəcə ağır və fəlakətli olduğu qeyd olunur: "Möhtərəm HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bugünü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar".

Hər zaman xalqının yanında olan, gecəgündüz xalqı üçün çalışan Ümummilli Liderimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi. 1992-ci oktyabrın 24-də "Səs" qəzeti vasitəsi ilə ziyalılara cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və onun Sədri olmağa razılıq verdi: "Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram".

### YAP-ın yaranması xalqın sabaha olan ümidlərini artırdı

Beləliklə, xalqın böyük ümid bəslədiyi Yeni Azərbayacan Partiyasının quruculuğuna başlanıldı. Lakin yenə də ozamankı hakimiyyət xalqın fəallığına əngəllər yaratmağa, partiyanın yardılmasına maneliklər törətməyə başladı. Bu səbəbdən də partiyanı yaratmaq istəyən bir qrup- 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə müvəffəq oldular. 1992-ci il noyabrın 21-də Dahi Öndərimiz Heydər Əliyevin Sədrliyi ilə keçirilmiş təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Ulu Öndərimiz Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. YAP müxalifət partiyası olmasına baxmayarq böyük siyasətçi Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında xalqın sevgisini, inamını qazanaraq qısa müddət ərzində iqtidar partiyasına çevrildi. Xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Dahi Öndərimiz Heydər Əliyev Azərbaycanda siyasi sabitliyə, iqtisadi inkişafa nail oldu. Bu cür işləri isə Dahi Öndərimiz Heydər Əliyev xalqa arxalanmaqla həyata keçirdi. Ona görə də, Dahi Öndərimiz Heydər Əliyev deyirdi ki, "Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam".

Ümummilli Lider 1994-cü il sentyabrın 20-də əsasını qoyduğu "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Heydər Əliyev siyasi uzaqgörənliyinin nəticəsidir ki, indi Azərbaycan dünyanın aparıcı dövlətlərinin iqtisadi maraq meydanına çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Mütəxəssislər haqlı olaraq bu layihəni Azərbaycanın taleyində dövlət müstəqilliyi qədər əhəmiyyətli tarixi hadisə hesab edirlər. Azərbaycanın sosial-iqtisadi tərəqqisinə, onun beynəlxalq aləmə iqtisadi inteqrasiyasına zəmin yaradan bu misilsiz layihəyə görə nəinki Azərbaycan, hətta bir çox xalqlar Ulu Öndərimiz Heydər Əliyevə minnətdar olacaqlar. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi haqqında müqaviləni bağlamaqla Dahi Öndərimiz Heydər Əliyev təkcə Azərbaycanın yox, Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bu akt öz növbəsində siyasi fəaliyyət və inkişafın hüquqi əsaslarının formalaşması mənasına gəlirdi. Daha sonra parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Bu proseslərə paralel olaraq vətəndaş cəmiyyətinin formalaşdırılması və hüquqi dövlətin fundamental komponentlərinin mütləq surətdə bərqərar olunması yönündə əhəmiyyətli addımlar atıldı.

### Azərbaycanın inkişafı müdrik siyasətə əsaslanır

Tam əminliklə demək olar ki, bu gün Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyev çox böyük müdrikliklə aparır. Demokratiya və müstəqillik ideyalarına sadiq olan Prezident İlham Əliyev indi milli mənafelərimizi yüksək səviyyədə qoruyur. Bu gün Heydər Əliyev siyasətinin uğurlu davamını görmək nə qədər xoş və ürəkaçandır! Prezident İlham Əliyevin qətiyyəti siyasi iradəsi sayəsində 30 il işğalda olan torpaqlarımız işğaldan azad olunaraq sərhədlərimiz tam şəkildə bərpa olundu. 2020-ci ildə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Müzəffər Ali Baş Komandanımız və rəşadətli ordumuz böyük qələbəni Azərbaycan xalqına bəxş etdi. 44 günlük Vətən müharibəsində tarixi zəfər qazanan Azərbaycan bölgədə və dünyada yeni reallıqlar yaradıb. Qazanılmış bütün bu uğurlarda Yeni Azərbaycan Patiyasının da böyük payı var. Çünki yarandığı gündən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi bütün bacarığını dövlətə, xalqa xidmətə yönəldərək Azərbaycanın qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib. Hazırda Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ölkəmizin ən güclü siyasi qüvvəsi statusunu daşıyır. Partiyamızın sıralarında 800 min nəfərə yaxın insanın birləşməsi də bu faktı təsdiqləyir. Qürurverici hal ondan ibarətdir ki, hazırda YAP Cənubi Qafqazın kəmiyyət və keyfiyyət baxımından ən öndə gedən lider partiyasıdır. Buna isə Prezidentimiz, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə nail olunub. Hazırda Yeni Azərbaycan Partiyasının sıralarında 800 min nəfərə yaxın insan birləşir. Partiyamız bundan sonra daha da inkişaf edəcək və yeni-yeni qələbələri ilə dövlətimizin inkişafına, xalqımızın daha rahat, təhlükəsiz, iqtisadi cəhətdən təmin olunması baxımından töhfələr verəcək.

***İLHAM ƏLİYEV***

# COP29 kimi möhtəşəm tədbir hələ uzun illər dillər əzbəri olacaq - PARTİYA SƏDRLƏRİ

***Məlumdur ki, Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyası (COP29) davam edir. Noyabrın 11-də start götürən tədbirdə dünyanın təxminən 190-dan çox ölkəsini 75 mindən çox nümayəndə təmsil edir. Bəs partiya sədrləri COP 29-u necə dəyərləndirir? SİA mövzu ilə bağlı sorğu edərək onların fikirlərini öyrənib.***




**Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu:** "COP29 dünya əhəmiyyətli, olduqca mühüm bir beynəlxalq tədbirdir. Belə mühüm bir tədbirə dövlətimizin ev sahibliyi etməsi olduqca fəxarətlidir. Hesab edirəm ki, Azərbaycanımız dünyada multikulturalizm və tolerantlığın mərkəzi olması ilə yanaşı, həm də bəşəri dəyərlər uğrunda fədakarlıq edən bir dövlət olaraq hər zaman özünəməxsus zirvədə duracaq. COP29-a dünya dövlətlərinin və dünya liderlərinin marağı, bu maraq fonunda Azərbaycanın ev sahibi olaraq bu günədək keçirilmiş



28 belə tədbiri kölgədə qoyacaq səviyyədə COP29-a hazırlaşması - Azərbaycanın həm də dünyada etibarlı, işinə dəqiq bir partniyor kimi tanınması ilə nəticələnəcək. Fikrimcə Prezident İlham Əliyevin bu tədbirə önəm və diqqət verməsi bir çox dünya liderlərinə həm də bir dərsdir. Əmin olun ki, bu möhtəşəm tədbir hələ uzun illər dillər əzbəri olacaq ".

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı:** "Azərbaycan Birləşmiş Millətlər Təşkilatının olduqca ciddi xarakter daşıyan və bəşəriyyəti gözləyən faciələrdən, kataklizmlərdən xilas etmək üçün COP29 layihəsinə yüksək səviyyədə ev sahibliyi etməyi bacardı. Bu Azərbaycan dövlətinin bəşəriyyət qarşısında verdiyi ən böyük töhfələrdən biridir. Təbii ki, həm də gücünün ifadəsidir. Bir sıra Qərb öl-



kələri riyakarlıq, ikiüzlülük edərək Azərbaycana qarşı bu platformadan siyasi təzyiq kimi istifadə etməyə və onu baykot etməyə çalışdılar. Lakin bacarmadılar. Cənab Prezident İlham Əliyevin dediyi kimi onlara pis xəbər verildi. Onların niyyəti iflasa uğradı. Dünyanın 196 ölkəsindən 72 min qeydiyyata alınmış iştrakçı, onlardan 80 Prezident, Vitse-Prezident və Baş Nazir səviyyəsində COP29-un təntənəli açılışı baş tutdu. Bir neçə gündür davam edən konfrans bu konfrans iştrakçıları tərəfindən ən yüksək qiymətini almaqdadır. Onu da xüsusi qeyd etmək istərdim ki, Azərbaycan İqlim Dəyişikliyinin qarşısını almaq üçün bütün resurslarını, potensialını və maliyyə imkanlarını ortaya qoyur, bu konfransın Azərbaycanda keçirilməsinə mane olmağa çalışanlar isə təkcə Azərbaycana qarşı qərəzli və düşmənçilik mövqeyini nümayiş etdirmirlər, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının tədbirini boykot etməyə çalışırlar həm də bəşəriyyəti gözləyən iqlim dəyişikliyinin qarşısını almaq üçün təpki göstərirlər. Deməli anti-bəşəri fəaliyyətlərini ortaya qoyurlar. Budur Azərbaycanla bir sıra Qərb ölkələrinin Fransa, Hollandiya, İsveç, Norveçin fərqi. Beləliklə Azərbaycan bir daha beynəlxalq səviyyəli brend yaratdı.

Dövlətimizin gücü və geniş imkanları ilə bəşəriyyətə vermiş olduğu töhfələrə bir vətəndaş kimi qürur hissi duyur, fəxr edirik. Ölkəmizin qazandığı növbəti uğur Azərbaycan dövlətinin, ölkə Prezidentinin və onun komandasının gücünün bütün dünyaya nümayişi oldu".

**Azad Vətən Partiyasının sədri Akif Nağı:** "Mən hesab edirəm ki, COP 29 Azərbaycanın çox böyük uğuru oldu. Bu beynəlxalq bir tədbirdir, BMT-nin tədbiridir. 200-ə yaxın ölkə Azərbaycana etimad göstərdi və Azərbaycan da bu etimadı doğrultdu, yüksək səviyyədə təşkilatçılıq nümayiş etdirdi. Bakı şəhərində insanların davranışı yüksək səviyyədədir. Bugün mən metroda bir qrup gələn qonaqları da gördüm. Onlar hardasa 10-12 nəfər idi, yanlarında da tərcüməçi gəzirdi, maraqla baxırdılar. Çox maraqlı, çox qəşəng



təşkil olunmuşdu. Qoyulan məsələlər də hesab edirəm ki, qlobal istiləşmə ilə bağlı dünyanı narahat edən bir məsələdir. Hələ müzakirələr gedir, qərarlar qəbul olunacaq, bundan sonra praktik addımlar atılacaqdır. Hər cəhətdən mən hesab edirəm ki, çox yüksək dərəcədə təşkil olundu, müsbət bir hadisədir. Azərbaycan Prezidentinin çıxışı da orada çox önəmli bir çıxış oldu, o cümlədən Azərbaycanın öz torpaqlarını azad etməsi, haqqının olması ilə bağlı, BMT təhlükəsizliyi qətnamələrin yerinə yetirilməsi ilə bağlı mövqeyini açıq şəkildə həm dövlətin, həm xalqın, həm öz mövqeyini ortaya qoydu".

**AĞ Partiyasının sədri Tural Abbaslı:** "Cop 29 düşünürəm ki, Azərbaycanda keçirilən ən mötəbər tədbirlərdən biridir və bu COP 29-un Azərbaycanda keçirilməsinin ölkəmizin dünyadakı imici üçün müsbət hal kimi qiymətləndirirəm. Çünki heç kəsə sirr deyil ki, ikinci Qarabağ müharibəsindən sonra Ermənistan və onun müxtəlif ölkələrdəki lobbi təşkilatları, diaspora təşkilatları Azərbaycanı vəhşi və işğalçı bir dövlət kimi təqdim etməyə çalışırdı və bununla bağlı xeyli işlər görülmüşdü. Cop29 həm də Azərbaycanı olduğu kimi dünyaya göstərmək üçün bir fürsət kimi dəyərləndirmək lazımdır. Düzdür, indi müxtəlif tənqidlər və s. ola bilər, amma ümumi anlamda COP 29-un Azərbaycanda keçirilməsini müsbət hal kimi qeyd etmək lazımdır. Çünki beynəlxalq aləmdə müxalifət,



iqtidar ayrı-seçkiliyi olmur, onlar adətən dövlət adından yanaşırlar. İstər Qarabağ məsələsində, istər belə məsələlərdə Azərbaycan adından yanaşırlar bu kimi məsələlərə. Bu iqtidardır, bu müxalifətdir kimi yanaşmırlar. Vahid mövqedən yanaşma olur. Ona görə də biz bu məsələdə Azərbaycanın uğurla çıxmasını arzulayırıq. Və bu günə qədər, yəni 2 gündür başlayıb, yüksək səviyyədə təşkil olunduğunu görürük. Düzdür COP 29-un müxtəlif tədbirlərinə indi partiyalar dəvət almayıb. Amma alsaq-almasaq da iştirak edərdik. Əsas odur ki, bu tədbirin dövlətin beynəlxaq imicinə müsbət təsiri olsun".

***Ayşən Vəli***

# Abidələr ölkəsindən danışaq...

***Azərbaycan abidələr ölkəsidir. Abidələrsə öncə tarix, sonra mədəniyyət və incəsənətdir. Belə isə çoxsaylı abidələrimiz ölkəmizin qədimliyindən, bu qədimliklə qoşa addımlayan mədəniyyət və incəsənətimizdən xəbər verir. Hər biri bir tarixdən danışan, bir dövrdən söhbət açan abidələrimizlə Azərbaycanımız necə də bəxtiyardır, qürurludur...***

## Abidələr şəhəri

Abidələr bu şəhərin hüsnünü bəzəyir, dünənindən xəbər verir, qədim tarixini təsdiqləyir. Bakı köksünə sığınan abidələrindən danışır, YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmış yaşayış məhəlləsi və tarixi-memarlıq qoruğundan- İçərişəhərdən, burada-açıq havada yerləşən müxtəlif dövrləri əhatə edən 50-dən çox tarixi və memarlıq abidələrinin yaratdığı nadir muzeydən, qoruna-qoruna günümüzədək gəlib çatmış Şirvanşahlar sarayından, Qız qalasından, Sınıq Qala minarətindən danışır. Qız qalasında faciəvi bir rəvayətə şahidliyini ürək ağrısı ilə vurğulayır. Xəzərin bu faciəyə göz yaşlarından yarandığından, o qızın fəth eidlməz, sarsılmaz obrazından söhbət açır. Xarici turistlərin Bakıya gələrkən mütləq bu qədim abidənin tarixi ilə maraqlandıqlarını, buradan onun sevimli Xəzərini seyr etdiklərini deyir. Tikintisi bütün XV əsr ərzində davam etdirilmiş, Azərbaycan memarlığının ən böyük abidəsi, bir çox tikililərdən ibarət bütöv bir memarlıq ansamblı olan, kompozisiya və planlaşdırılmasına görə dünyada analoqsuz Şirvanşahlar Sarayından qürurla danışır bu şəhər... Suraxanı qəsəbəsində yerləşən XVII əsrin atəşpərəstlər məbədi - Atəşgahdan, onun qaya üzərində qürurla dayanmasından, burada yerin altından çıxan qaz sayəsində min illərlə od yanmasından, bu odun istisinə yığışanlardan söhbət açır.

Köksünə yaxın bir yerə sığınan, 2007-ci ildə Qobustanın qayaüstü rəsmlərinin mədəni landşaftı YUNESKO-nun Dünya Mədəni irsi abidələri siyahısına salınan, ən qədim tarixi abidədən-özünün qayaüstü təsvirləri ilə dünyada məşhur olan Qobustandan da qürurla bəhs edir. Dövlət tarixi-etnoqrafik və bədii qoruğu olan Qobustanda Daş dövrünün və Azərbaycan xalqının tarixi keçmişinin şahidi olan Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Sıxqayada çoxlu miqdarda qayaüstü təsvirlərin, düşərgələrin, insan məskənlərinin, baş daşlarının olduğunu vurğulayır. Böyükdaş ərazisində mezolitdən tutmuş orta əsrlərə kimi bütün dövrlərin abidələrinə rast gəlindiyindən danışır. Abşeronun "İçərişəhər"i adlandırılan Qaladan-buradakı qədim məscidlər, yollar, ovdanlardan, XV əsrə aid qədim qəbirstanlıqdan, hamamlar, bürünc dövrünə məxsus məskun yerlərin qorunub saxlanmasından bəhs edir. Bu şəhər qədim tarixi abidələri ilə qürur duyur, onlardan fəxrlə söhbət açır...

## Hər bölgəmiz bir tarix, bir abidə...

Tək Bakı deyil, bölgələrimizin hər birində qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsi fonunda abidələrimizi görmək mümkündür. Onlardan biri-Naxçıvanda Əlincə Qalası tarixi memarlıq abidəsi Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Əlincə yüzillərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinə qulluq göstərsə də, tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamət və xəzinə yeri kimi tanınmış, çağının ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan böyük cahangir Əmir Teymuru belə möhkəmliyi ilə heyrətləndirmişdir. Səfəvilərdən sonra ciddi dağıntılara uğrasa da, qala XIX əsrdə də öz funksiyasını yerinə yetirmişdir.

Səsi əsrlərdən gələn Möminə xatun məqbərəsinin möhtəşəm görüntüsünə tamaşa etdikcə sanki müasir aləmdən qədim dünyaya səyahətə çıxırsan. Məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaninin şah əsəri və Naxçıvan-Marağa memarlıq məktəbinin ən dəyərli abidələrindən biri olan Möminə xatun türbəsi Naxçıvan şəhərinin tarixi mərkəzində -Atabəylər Memarlıq Kompleksinin tərkibində yerləşir. Möminə xatun türbəsi həmin kompleksdən dövrümüzə çatmış yeganə abidədir.

Türbənin uca gövdəsini yuxarıda qapayan yazıda - abidənin baş kitabəsində yazılmışdır: "...bu türbəni dünyanın elmli, adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl islam və əl müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəgiz ...dünyanın və dinin cəlalı, islamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikməyi əmr etdi!..."

Kiçik Qafqazın Ordubad dağlarında, Qapıcıq dağının cənub və şərq yamaclarındakı Nəbi yurdunda, Qaranquş yaylaqlarında yerləşən abidədə Gəmiqaya rəsmləri - qayaüstü təsvirlər əks olunub. Arxeoloqlar Qaranquş yaylağında qayaüstü rəsmlərin həkk olunduğu ərazidə Azərbaycan türklərinin ulu babalarına aid yurd yerlərinin qalıqlarını aşkara çıxarmış, müəyyənləşdirmişlər ki, Alp çəmənlikləri ilə zəngin olan Gəmiqaya-Qaranquş yaylağı Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olmuşdur.

Xüdafərin körpüləri- tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, bir qərinəyə qədər erməni işğalı altında qalan, 2020-ci ildə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində azad etdiyi bu tarixi abidə Cəbrayıl rayonu ərazisində yerləşir. Xudafərin Azərbaycan memarlıq sənəti tarixinin bəzəyi sayılan möhtəşəm tarixi abidələrdəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü məlumdur. Onlardan birincisi "Baş Xudafərin körpüsü" adlanır, uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal edilir. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi və Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. H. Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi Pompey tərəfindən tikilməsi barədə də fərziyyələr irəli sürənlər var.




Bu körpünün Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olub.

Güney Azərbaycanımızın Bəzz və Ərk qalaları. Bəzz Qaradağ mahalının Kəleybər qəsəbəsindən 3 km cənub-qərbdə yerləşir. Xürrəmilər hərəkatının rəhbəri Babəkin əsas sığınacaqlarından biri olduğu üçün xalq arasında daha çox Babək qalası kimi tanınır. Ərk qalası isə Təbriz şəhərində yerləşir. XIII əsrdə Hülakülər (Elxanilər) zamanında vəzir Əlişah tərəfindən tikdirilib.

XI - XII əsrlərdə Şamaxı şəhərini müdafiə etmək üçün inşa edilmiş Şamaxı qalası, Gülüstan qalası, Gədəbəy rayonunun Qala kəndi ərazisində yerləşən Koroğlu qalası, Şuşanın təxminən 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda Qarqarçayın sağ və sol sahillərində dağ döşündə yerləşən Əsgəran qalası, İsmayıllı rayonu ərazisində yerləşən Cavanşir qalası, Goranboy rayonundakı Gülüstan qalası, IV-VI əsrlərdə Şabran rayonunun təqribən 20-25 kilometrliyində, Çanaqqaya adlanan sıldırım qayanın zirvəsində istehkam qarovulxana məqsədi ilə Sasani hökmdarları tərəfindən tikilmiş Çıraqqala, Şamaxı rayonunun Mərəzə kəndində, dağın döşündə tikilmiş ikimərtəbəli Diribaba türbəsi, Ağdərə rayonunun Vəngli kəndində, Xaçınçayının sol sahilində yerləşən XIII əsr xristian alban monastırı Gəncəsər məbədi, Şəki rayonunun Kiş kəndi ərazisində yerləşən eyniadlı alban məbədi, Şuşa mərkəzi meydanının memarlıq ansamblında hakim mövqedə duran, XIX yüzilliyə aid binalar-Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri, Azərbaycan memarlığının şah əsərlərindən olan Şəmkir minarəsi ayrı-ayrı əsrlərdən, tarixi hadisələrdən söhbət açır. Azərbaycanın cənub-qərbindəki Kiçik Qafqaz sıra dağlarinin cənub-şərq yamacında Quruçay çayının sol sahilində, Xocavənd rayonu ərazisində yerləşən Azıx-dünyanın ən qədim insanlarının yaşadığı mağaranın yerləşdiyi Azərbaycan torpağı 1993-cü ildən erməni işğalına məruz qalmış, vandal ermənilər mağaradan silah-sursat anbarı kimi istifadə etmişlər. Azıx mağarası haqqında dünya çox az məlumata malikdir. Çünki keçmiş SSRİ dövründə bu mağarada axtarış aparan, onun tarixi barəsində danışan alimlərin xarici ölkələrdə yaşayan həmkarları ilə əlaqə yaratmasına imkan verilməmişdir. Bunun nəticəsidir ki, dünyanın ən qədim insanlarından birinin Azərbaycan ərazisində yaşadığı haqqında dünya hələ də çox az şey bilir.



1960-cı ildə Azərbaycan arxeoloqu Məmmədəli Hüseynovun rəhbərlik etdiyi ekspedisiya Azıx mağarasını kəşf etdi və üzərindəki pərdəni götürməyə başladı. Aydın oldu ki, mağara dünyanın ən qədim sakinlərinin (onları Azıxantrop adlandırırlar) yaşayış məskəni olub. 1968-ci ildə M. Hüseynovun uzun zamandan bəri Azıx mağarasında apardığı qazıntıların nəticəsi olaraq Neandertal tipə məxsus olan bir insanın alt çənə sümüyü aşkar edildi. Tapıntı üzərində aparılan tədqiqatlardan sonra məlum oldu ki, onun ən azı 350-400 min illik bir tarixi vardır.

## Abidələr ölkəsinin haray çəkən abidələri

30 il işğal altında qalan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponat olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub, 10 istirahət və mədəniyyət parkı, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı- xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qaldı. Bu abidələr düz 30 il haray çəkdi. Uçurdulan, sökülən, daşınan, məhv edilən, yer üzündən silinən abidələrimiz haray çəkdi. Bütün dünyaya üz tutdu, yer üzündən ermənilərin tarixi silmək istədiklərini hayqırdı. Bu səsə səs verən oldumu? Abidələrin mühafizəsi üçün cavabdehlər tarixin yaddaşı olan bu abidələrin halına acıdılarmı?

Məhv edilən tarixi-memarlıq, arxeoloji abidələr, məscidlər dünya ictimaiyyətinin diqqətini özünə cəlb edə bildimi? Bəli, edə bildi. Onlar möhtəşəmliyi ilə dünyanın diqqətini cəlb etdi, məhv edilməsi xəbəri qulaqlarda səsləndi. Lakin onların halına yanan tapılmadı. Bütün dünya gördükləri qarşısında kor, eşitdikləri qarşısında kar oldu. Erməni vandalizmi isə vandallığını gündən-günə genişləndirdi. Abidələrimizin düşməninə çevrildi. Onlar tək bizim torpaqlarımızı deyil, abidələrimizi də işğal etdilər. 30 il tək torpaqlarımızı əsarət altında saxlamadılar, eyni zamanda abidələrimizin qətlini həyata keçirdilər. Torpaqlarımızda qurulan-yaradılan nə vardısa, hamısını məhv etdilər. Məscidlərimizi təhqir etdilər. Dünya isə sanki bunlardan xəbərsiz kimi susdu.

Tarixi abidələr-məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr tarixi keçmişimizin yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Biz torpaqlarımızın qədir-qiymətini bildiyimiz kimi, abidələrimizi də mühafizə edənlərik. Odur ki, hər zaman abidələrimizin yaşadılması, qorunub saxlanması üçün çalışmışıq.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın yüksək sərkərdəliyi və milli ordumuzun səyi ilə torpaqlarımızı düşməndən geri aldıq. Biz Zəfər qazandıq. Eşitmişdik, həm də gördük ki, ermənilər abidələrimizi necə məhv ediblər. Lakin əsas torpaqdır, torpaq varsa, onun üzərindəki hər şey bərpa oluna bilər. Deməli, yaxın gələcəkdə xəritələr üzrə bütün abidələrimiz də bərpa olunacaq. Onların ermənilər dağıtdığı hissələri də saxlanmaqla gələcək nəsillərə bu abidələrin varlığı və erməni vəhşiliyi göstəriləcək. Abidələr tarixdir. Səyahətinə çıxdığımız tarix isə bizə abidələrimizlə bağlı böyük bir keçmişimizin olduğundan söhbət açdı. Hər zaman qürur duyduğumuz keçmişimiz...

***Mətanət Məmmədova***

# Azərbaycan - ABŞ: qarşılıqlı maraqlar üzərində qurulan yeni münasibətlər

## Prezident İlham Əliyev: "Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır"

“Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Siz birinci prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Donald Trampa ünvanladığı təbrikində bildirib. Seçkilərdə qazandığı inamlı qələbənin dost Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsi olduğunu bildirib.

Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan ABŞ ilə də münasibətlərini yüksələn xətt üzrə inkişaf etdirir. Siyasi və təhlükəsizlik, eləcə də enerji sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. Azərbaycanla ikitərəfli əlaqələrin pozitiv keşmişi və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər mövcuddur. Ölkələr arasında münasibətlərin siyasi, iqtisadi, ticarət, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivləri var.

Bildiyimiz kimi, Azərbaycan - ABŞ strateji əməkdaşlığı keyfiyyətcə yeni mərhələdə Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra Amerika Birləşmiş Ştatları ilə əlaqələr 1992-ci ildə yaradıldı. Hazırda, ABŞ-ın Azərbaycanda bir səfirliyi, Azərbaycanın isə ABŞ-da bir səfirliyi və bir konsulluğu fəaliyyət göstərir. Dövlətlərarası diplomatik əlaqələr Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəmləndi. 1997-ci il 29 iyul tarixində Prezident Heydər Əliyevin ABŞ-a rəsmi səfəri bu əlaqələrin möhkəmlənməsində əhəmiyyətə malikdir. Daha sonra 2003-cü il 23-27 fevral tarixlərində Ulu Öndərin ABŞ-a işgüzar səfəri əməkdaşlığın davamlığını əks etdirir. Ulu Öndər Heydər Əliyevin ABŞ-a tarixi səfərləri nəinki bu iki ölkənin strateji əməkdaşlığının möhkəmləndirilməsində keyfiyyətcə yeni bir mərhələ, habelə, bu əməkdaşlığın fundamental əsaslarının bir daha sınaqdan çıxmasında vacib əhəmiyyət daşıyan hadisə oldu. Əməkdaşlıq əlaqələri Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətlərarası qarşılıqlı işgüzar görüşlər bu əlaqələrin davamlılığına söykənir. Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri də faydalı əməkdaşlığa əsaslanır. Birləşmiş Ştatların sabiq dövlət başçısı Barak Obamanın dəvəti ilə möhtərəm Prezidentimiz İlham Əliyevin Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün ABŞ-a səfər etməsi və burada yüksək səviyyəli dövlət rəsmiləri ilə görüşlərin keçirməsi münasibətlərin daha da dərinləşməsini özündə əks etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri ölkələrimiz arasındakı səmimi və sarsılmaz, qarşılıqlı maraqlar üzərində qurulan əlaqələrin tamamilə yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir.



### ”AZƏRBAYCAN BUNDAN SONRA DA CƏNUBİ QAFQAZDA SÜLHÜN VƏ TƏHLÜKƏSİZLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİNİ DAVAM ETDİRƏCƏKDİR”

1994-cü ildə Xəzər hövzəsinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə ”Əsrin müqaviləsi”ndə ABŞ şirkətləri yer almış, habelə həmin zamandan ABŞ tərəfi Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisinə fəal dəstək olmuşdur. 2017-ci il 14 sentyabr tarixində Azərbaycan və onun beynəlxalq enerji tərəfdaşları arasında Azəri, Çıraq və Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində də ABŞ-ın Şevron və Ekson şirkətləri yer almışdır. ABŞ, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsində rol oynayıb. ”Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim.

Biz Birləşmiş Ştatlar ilə qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq ikitərəfli tərəfdaşlığımızı bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi-ticari, təhlükəsizlik, enerji, yaşıl və rəqəmsal keçid və digər istiqamətlər üzrə daha da genişləndirmək və dərinləşdirmək əzmindəyik” - deyə Azərbaycan Prezidenti təbrikində bildirib: ”İnanırıq ki, Sizin yeni prezidentlik dövrünüzdə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlər daha da möhkəmlənəcək, yeni əməkdaşlıq sahələri müəyyən olunacaqdır.

Azərbaycan bundan sonra da Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirəcəkdir.

Əminəm ki, Azərbaycan - ABŞ dostluq münasibətlərinin güclənməsi, ölkələrimizin milli maraqları, o cümlədən milli təhlükəsizlik maraqları əsasında tərəfdaşlığımızın irəli aparılması yolunda bundan sonra da birgə səylər göstərəcəyik”.

Hazırda iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Bu da ölkəmizin beynəlxalq aləmdəki mövqelərini daha da artırır, Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri ilə qarşılıqlı əməkdaşlığa malik olduğunu bir daha göstərir.

*Zümrüd BAYRAMOVA*

## ”Müvafiq ölkələrə yardımı təmin etmək lazımdır” - Xarici qonaq



“Artıq ikinci dəfədir ki, COP konfransında iştirak edirəm, ötən il COP28-də də iştirak etmişdim”. Bu sözləri SİA-ya açıqlamasında İndoneziya vətəndaşı, gənclərin ətraf mühit aktivisti Aldira Ramadhani Soetjipto deyib. O bildirib ki, COP29 yüksək səviyyədə təşkil olunub, hər şey qaydasındadır: ”Lakin bəzi insanlar COP29-la bağlı siyasi şəkildə narahatlıq keçirirlər. Amma COP29-u siyasi problem olaraq müzakirə etməkdənsə, iqlim dəyişimlərini müzakirə etməyə üstünlük vermək lazımdır. Fərqli ölkələrdən gəlib, burada toplaşmağımızın məqsədi məhz iqlim dəyişmələri ilə bağlı əsas problemlərin həlli yollarını müzakirə etmək, müvafiq ölkələrə yardımı təmin etmək lazımdır.

İndoneziyanın gənc ekologiya qoruyucuları olaraq hər kəsə açıq olan düşərgə yaradıblar. Burada maraqlı olan hər kəsə iqlim dəyişmələri, bərpaolunan enerji vasitələri ilə məlumatlar verilir, təlimlər keçirilir”.

# ”Kənd təsərrüfatında suya qənaət texnologiyasının tətbiqini nəzərdə tutmuşuq”



”Azərsun Holdinq”in idarə heyətinin üzvü Savaş Uzanın SİA-ya verdiyi müsahibəni təqdim edirik:

***- Bərpaolunan enerji mənbələrinin biznesin davamlılığına təsirləri nələrdir?***

-Azersun olaraq, bərpaolunan enerji mənbələrinin istifadəsi biznesimizin davamlılığına birbaşa müsbət təsir edir. Bu enerji mənbələri əməliyyat xərclərini azaldır, enerji tədarükünün etibarlılığını artırır və ətraf mühitə mənfi təsirləri minimuma endirir. Bundan əlavə, müasir bazar tələblərinə uyğun olaraq daha ekoloji təmiz yanaşmalar müştərilərimiz və tərəfdaşlarımız tərəfindən yüksək qiymətləndirilir.

***- Suyun dayanıqlılığı istehsalda necə təmin edilir?***

-Azersun olaraq, su resurslarının dayanıqlı istifadəsi üçün müxtəlif tədbirlər həyata keçiririk. İstehsalat proseslərində suyun təkrar emalı və istifadəsinə üstünlük veririk. Eyni zamanda, sudan səmərəli istifadəni təmin edən yeni texnologiyaların tətbiqi ilə itkilərin qarşısını alır və su ehtiyatlarımızın qorunmasına töhfə veririk. Eyni zamanda hazırda kənd təsərrüfatında suya qənaət texnologiyasının tətbiqini nəzərdə tutmuşuq.

***- İstehsalatda yaşıl dünya naminə dayanıqlı və innovativ həllər nələrdir?***

-İstehsalat proseslərimizdə karbon izini azaltmaq üçün innovativ texnologiyalara sərmayə yatırırıq. Kağız tullantıların təkrar emalı, enerjiyə qənaət edən avadanlıqların tətbiqi və təmiz enerji həlləri ilə ətraf mühitin qorunmasına töhfə veririk. Həmçinin, yeni məhsullarımızın qablaşdırılmasında bioloji parçalanan materiallardan istifadə edirik.

***- Bərpaolunmayan resurslardan istifadəni minimuma endirmək üçün hansı tədbirlər görülür?***

-Bərpaolunmayan resursların istifadəsini azaltmaq məqsədilə alternativ xammal mənbələrinə keçid edirik. Bu strategiyamız həm enerji, həm də istehsal proseslərində tətbiq edilir. Eyni zamanda, resursların səmərəli istifadəsini təşviq edən təlimlər və proqramlar vasitəsilə əməkdaşlarımızın da bu sahədə bilik və bacarıqlarını artırırıq.

***- Bərpaolunan enerji mənbələrinə əlçatanlıq qane edirmi?***

-Azersun olaraq, bərpaolunan enerji mənbələrinə çıxışı yaxşılaşdırmaq üçün fəaliyyət göstəririk. Cari vəziyyət qismən qənaətbəxş olsa da, ölkədə bu sahənin inkişaf etdirilməsi üçün əlavə investisiyalar və hökumət dəstəyi tələb olunur. Bununla yanaşı, şirkət olaraq öz infrastrukturumuza sərmayələr yatırır və uzunmüddətli perspektivdə daha geniş miqyasda bərpaolunan enerji mənbələrindən istifadə etməyi planlaşdırırıq. Bu istiqamətlərdəki fəaliyyətlərimiz davamlılıq və yaşıl gələcək naminə Azersun-un strateji məqsədlərindən biridir.

*Səbinə Hüseynli*

# “COP28-in boşluqlarını Bakıda doldurmalıyıq”





**“COP29-dakı çıxışlarda qırmızı xətlə keçən fikirlər ondan ibarətdir ki, bu konfransın meydanı sərt qarşıdurma meydanı deyil. Əməkdaşlıq, anlaşma meydanıdır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**

O bildirib ki, burada bütün insanlar gələcəyin üzərində işləməlidirlər ki, planetimizdə iqlim şəraiti bir qədər canlansın, digər tərəfdən də gələcək nəsillərə normal, sağlam irs ötürə bilək: ”Bütün beynəlxalq meydanların hamısında rəqabət məqamları var. Ancaq elə bir məsələlər ortaya çıxır ki, orada konsensus axtarışı əsas tələbə çevrilir və digər tərəfdən də iştirakçı ölkələr, nümayəndələr gərək bir-birini eşitməyi öyrənsinlər. Bu baxımdan hesab edirəm ki, Azərbaycan paytaxtında COP29-la əlaqədar çox mühüm atmosfer formalaşıb. Təşkilatçılıq yüksək səviyyədədir. Ona görə də, çıxışların hamısında Azərbaycanın mövqeyini iştirakçılar birmənalı dəstəkləyirlər. Bildirirlər ki, işgüzarlıq üçün maksimal dərəcədə imkanlar istifadə olunub. Əsas fikirlərdən biri odur ki, əgər biz gələcəyi düşünürüksə, gərək bu günə investisiyalar edək. Çünki gələcək artıq başlayıb. Bu gün isə onun həlledici məqamlarını həll edə bilərik. Bu baxımdan da Azərbaycan tərəfinin ev sahibi kimi iştirakı faydalılıq göstəriciləri həddindən artıq yüksəkdir. Birincisi, biz 14 təşəbbüslə irəli çıxırıq. Bunlar həm insan faktorlarını, ətraf mühitin tələblərini nəzərə alır, resurs bazasının vəziyyətini, əsas göstəricilərin hamısını diqqətə alır. Hətta kadr siyasətində hazırlıqların görülməsini də Azərbaycan tərəfinin təşəbbüslərində sezirik. Ona görə də çıxışlarda birmənalı vurğulanır ki, burada sadəcə iştirak edib müşahidəçi qismində nümunələr göstərmək kifayət etmir, əksinə proseslərə ikiəlli yapışmaq lazımdır.

Proseslərə yaradıcı münasibət göstərmək lazımdır ki, həqiqətən də, o risklər və çağırışlar müvafiq tərzdə qarşılansın. Əlbəttə ki, burada diqqəti çəkən BMT baş katibi Antoni Quterreşin çıxışı idi. Orada o, çox vacib mesajları ötürdü. Bildirdi ki, Bakı sammitindən heç bir iştirakçı əliboş qayıtmalı deyil. Yəni, biz əgər müzakirələrə qatılırıqsa, gərək aydın fikirlər və ideyalar irəli sürək. Prezident İlham Əliyevin çıxışı son dərəcə praqmatik və aktual göründü, eşidildi, səsləndi və dövlət başçısı bildirdi ki, baykot siyasətini həyata keçirmək istəyənlər sadəcə keçmişin qalığı kimi özlərini nümayiş etdirirlər.

”Bütün fəal iştirakçılar həm sağlam düşüncə, həm praqmatik və rasional yanaşma göstərməyə hazırdırlar. Bu baxımdan da Azərbaycanın mövqeyini dövlət başçısı xüsusilə vurğuladı ki, biz yaşıl gündəliyi artıq tərtib etmişik. 2015-ci ildən bəri ölkəmiz proqram şəklində bu işlərin hamısını həm nəzərdən keçirib, həm fəaliyyət planlarını hazırlayıb, beləcə də biz artıq Avropanın həm də yaşıl enerji təminatçısına çevrilirik.

Azərbaycan burada həm qətiyyətlə mövqeyini bildirir, digər tərəfdən də göstərir ki, realistik yanaşma və iştirak nədən ibarət olmalıdır. Digər dövlət rəhbərlərinin, hökumət başçılarının da bütün bu çağırış ruhlu fikirləri səsləndi və birmənalı fikir ondan ibarətdir ki, biz həlledici məqamdayıq. Əgər COP28 Birləşmiş Ərəb Əmirliklərində keçirilərkən orada bir çox məsələlərə aydınlıq gətirə bilmədisə, artıq biz o boşluqları Bakıda doldurmalıyıq” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Kimlərə qulluq etmə müddəti staja daxil deyil?



“Əmək pensiyaları haqqında Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq, dövlət qulluqçusu kimi qulluq stajına görə əlavə hesablanmış pensiyanın məbləği ümumi əsaslarla hesablanmış pensiya məbləğindən az təşkil etdikdə şəxsə ümumi əsaslarla pensiya təyinatı həyata keçirilir”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: ”Həmin Qanunun 21-ci maddəsində deyiilir ki, orqanizmin funksiyalarının 80-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə, habelə ahıllara yəni, yaşı 70-ə çatmış şəxslərə qulluq edilmə müddəti staja daxil edilir.

Əlilliyə görə əmək pensiyası orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi olan şəxslərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə, əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. Orqanizmin funksiyalarının 61-80 və 31-60 faiz pozulmasına görə əlilliyi olan şəxslərə əlilliyə görə əmək pensiyası fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi şərtilə bu maddədə göstərilən sığorta stajı olduqda təyin edilir.

Ailə başçısını itirməyə görə əmək pensiyası ailə başçısının ölüm gününədək əlilliyə görə əmək pensiyası orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi olan şəxslərə ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir. Təyin edilmiş pensiyanın ailəyə düşən ümumi məbləği əmək pensiyasının minimum məbləğindən az olduqda həmin məbləğə çatdırılmaqla ödənilir”.

***Ayşən Vəli***



Elçin Bayramlı

# Öz gözündə tiri görməyənlər üçün master-klass

Bir neçə gündür sosial şəbəkələrdə COP-29 tədbirləri üçün Bakıya gəlmiş Cənubi Amerikalı nümayəndə geyimi ilə bağlı lağa qoyulur. Qeyd olunur ki, bu adam başında quş lələkləri düzüb, yəqin ki buna görə neçə quşu öldürüb, amma gəlib ekologiyanın qorunmasından danışır. İlk baxışda savadsız adamlar üçün lağ obyekti kimi görünür. Amma intellektual və düşünə bilən şəxslər üçün bu irad aşkar biabırçılıqdır.

## Gəlin baxaq, görək dünya ekologiyasını kim məhv edir, siz, yoxsa o?

Əvvəla, bu lələklər sünidir, ikincisi də quş lələklərini ölmüş quşdan da götürmək olar. Üçüncüsü, hətta ən pis halda bunun üçün bir-iki quş öldürmüş olsa belə, siz quşların öldürülmədiyi bircə ölkə göstərə bilərsinizmi? Yatdığınız balışın içindəki quş tükü deyilmi? Hər gün toyuq əti yeyərək ildə onlarla quşun öldürülməsini sifariş etmiş olmursunuzmi? Qırmızı ət yeyərək, heyvanların öldürülməsinə siz səbəb olmursunuzmu?

Bu adam Amazon meşələrin yaşayan kiçik xalqın nümayəndəsidir. Tam təbii həyat yaşayır, təbiətlə harmoniyada, sadə və təbii həyat. Amazon meşələri yerindədir, dünyanın ən güclü biomüxtəlifliyi orada qorunur. Lakin dünyanın ”inkişaf etmiş” bölgələrində meşələrin 60 faizi son 100 ildə məhv edilib. Heyvan növlərinin 60, bitki növlərinin 40 faizi məhv edilib.

Heyvanları, quşları fermalarda, fabriklərdə işgəncəli şəraitdə saxlayaraq artıran və yeyən siz ”inkişaf etmiş” adamlar deyilmi? Heyvanların diri-diri dərisi soyularaq düzəldilmiş şubaları geyinən siz deyilsinizmi? Bəzək əşyaları düzəltmək üçün fil dişi əldə etmək məqsədilə filləri kütləvi qırıb qurtaran siz ”inkişaf etmiş” insanlar deyilsinizmi? Kürü yemək üçün bir balığın kürüsünü çıxararaq bir dəfəyə milyonlarla balığı məhv edən siz deyilsinizmi?

Gündəlik fəaliyyətiniz boyu fasiləsiz olaraq təbiətə zəhər, zibil atan siz deyilsinizmi? Təbiəti məhv edən, 1000 ilə yaxın çürüməyən, yandırılanda havanı zəhərləyən, okeanların səthində toplaşıb dəniz qədər yer tutan sellofan paketləri, plastik qabları hər gün təbiətə atan siz deyilsinizmi? İstifadə etdiyiniz kimyəvi təmizlik və kosmetika məhsullarını, işlənmiş maşın yağlarını təbiətə ataraq suyu, torpağı zəhərləyən, torpaqları kimyəvi dərmanlarla zəhərləyən siz deyilsinizmi?

İstifadə etdiyiniz texnikaların, batareyaların, məişət avadanlıqlarının, geyim və bəzək aksessuarlarının, sürdüyünüz maşınların təbiətin anasını necə ağlatdığını guya bilmirsiniz? Yeni dəbdir deyə, yeni tikilmiş villa və həyət evlərində hər yerə tamet döşəyib bircə ağac da əkməyənlər siz deyilsinizmi? Ağacları qırıb yerində obyekt tikən siz deyilsinizmi? Artıq məhsul götürüm deyə torpağı kimyəvi dərmanlarla zəhərləyən, milyardlarla həşəratın, quşun ölümünə səbəb olan siz deyilsinizmi? Yaşadığınız şəhərlərin üstü bir yana altı belə kanalizasiya deyilmi? Sizin üçün saqqal daraqları düzəldən zavodlar havaya minlərlə növdə zəhərli maddələr buraxmırmı?

Zibili balkondan aşağı vızıldadan, istirahət üçün getdiyiniz təbiət guşələrini zibilləyən siz deyilsinizmi? Komfort yaşamaq üçün istifadə etdiyiniz bütün əşyalar ekologiyaya zərər vuraraq hazırlanır və ya istifadəsi zamanı zərər vurur.

Siz yaşadığınız süni, kimyəvi şəhərlərdən bütün canlı aləm, heyvanlar didərgin düşür ey. ”Hər yer və hər şey bizimdir” deyib, digər canlılara heç nə saxlamayan siz deyilsinizmi? Həyətə axıtdığınız paraşoklu suyu quşaq içib ölür ey, xəbəriniz varmı?

İstisnasız olaraq hər biriniz təbiətin məhv olması, ekologiyanın korlanması üçün əlinizdən gələn hər şeyi edirsiniz, özü də hər gün və hər saat. O şəxs isə, hətta hərdənbir qida üçün bir quş və ya heyvandan istifadə edirsə də, sizin təbiətə vurduğunuz zərərin milyonda birini belə vurmur. Sadə, təbii evdə yaşayır, sadə qidalanır, torpaqda zəhmət çəkir, ətrafı kimyəvi madələrlə zəhərləmir, çox az əşya ilə yaşayır. Telekanallarımızın birinə verdiyi müsahibəsinə baxdım, çox savadlı və düşüncəli şəxs olduğu aydın görünürdü.

Çoxsaylı və təkzibedilməz faktlarla sizə sübut etdim ki, ekologiyaya zərər vuran, təbiəti məhv edən o deyil, sizsiniz. Bəli, cənablar və xanımlar, özünü mədəni, sivil, müasir adlandıran məxluqlar.

Faktlar amansız şeylərdir, gec-tez onlarla hesablaşmaq lazım gəlir. Başqasının gözündə tük axtarmazdan əvvəl öz gözündə tiri görmək lazımdır. O adam sizi bəlkə bağışlayacaq, amma öz vicdanınız bağışlayacaqmı, bilmirəm. İndi siz deyin, sizi bağışlamaq olarmı?

# Unikal tolerantlıq modeli



"Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq", - deyə Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir.

Əlbəttə ki, xalqımızın çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti dünya sivilizasiyaları arasında münasibətlərin tənzimlənməsi və inkişafında nümunədir. Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər bəşəriyyətin təhlükəsiz gələcəyi və birgəyaşama ənənələrinə, dialoq və mədəni çeşidliliyə dəstəyin bariz nümunəsidir. Bu gün ölkəmizdə müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Ölkəmizdə mövcud olan dini icmaların fəaliyyətinə hərtərəfli şərait yardılıb və heç vaxt ölkəmizdə dini və milli zəmində qarşıdurma, xoşagəlməz hal baş verməyib. Azərbaycanda tolerantlıq mühitindən söz açarkən ilk növbədə ölkəmizdə hökm sürən siyasi sabitliyi, sosial və iqtisadi inkişafı vurğulamalıyıq. Müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayırlar. Ölkəmizdə müxtəlif inanc sahiblərinin bir-birlərinin dininə hörmətlə yanaşmaları dünya ictimaiyyəti üçün nümunədir. Belə bir mühitin formalaşdığı Azərbaycanda da hər il 16 noyabr Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Bu beynəlxalq gün YUNESKO-nun "Dözümlülük prinsipləri bəyannaməsi"ndə təntənəli şəkildə elan edilmişdir. Bəyannamə 1995-ci ildə təsdiq edilmişdir. Bəyannamədə dözümlülük (tolerantlıq) dedikdə, "dünya mədəniyyətlərinin zəngin müxtəlifliyi, bizim özünüifadə formaları və insan fərdiliyini ifadə etmək üsullarına hörmət, qəbul və doğru anlaşma" nəzərdə tutulur. Bəyannamədə "insanların öz təbiətinə görə xarici görünüşü, mövqeyi, danışığı, davranışı və dəyərləri baxımından fərqli olduqlarını, barışıq içində yaşamaq və fərdiliyini qorumaq hüquqlarına sahib olduqlarını" elan edir. Bəyannamədə insanlara qarşı dözümsüzlüyün yaratdığı təhdidlər araşdırılır, dözümsüzlüyə qarşı mübarizə metodları və proqramları təqdim olunur. 1997-ci ildə BMT Baş Assambleyası (A/RES/51/95 saylı qətnamə) da BMT-nin üzvü olan dövlətlərə bu Beynəlxalq Günü qeyd etməyi təklif etmişdir.

Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və vahid dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir. Ölkəmizdəki tolerantlıq mühiti Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir.

Azərbaycanın müasir mənzərəsinə baxsaq görərik ki, ölkəmiz yəhudilərin, müsəlmanların və xristianların yan-yana ibadət etdikləri məkandır. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələrinin öz dini etiqadlarını, ayinlərini sərbəst və bərabər şəkildə yerinə yetirmək imkanları var və ölkədə məscidlərlə yanaşı pravoslav, katolik, alban kilsələri və sinaqoqların fəaliyyət göstərir. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığının göstəricisidir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün hamı, dini mənsubiyyətindən asılı olmayaraq tam bərabər hüquqa malikdir.

## MULTİKULTURALİZM VƏ TOLERANTLIQ ƏNƏNƏLƏRİNİN MÖVCUDLUĞU DƏLİLLƏRDƏ

Əlbəttə ki, onu da vurğulamaq yerinə düşər ki, Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, İvanovka, Nic və başqa kənd və qəsəbələri dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Bura gələn hər kəs multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu görürlər. Ölkəmizin elə bir məkanı yoxdur ki, orada bu mühit ilə qarşılaşmayasan. Qeyd edək ki, Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Qeyd edək ki, ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur. İnkar olunmaz faktdır bu gün Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər. Azərbaycan xalqına bugünkü rifahı bəxş etmiş və ölkəmizdəki multikultural mühitin siyasi bünövrəsini yaratmış Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev sülh və əmin-amanlığa, xalqlar arasında dostluğun möhkəmlənməsinə töhfələr verir. Fərqli dinin, fərqli etnosun yaşadığı həmin məkanlarda Azərbaycanda mövcud olan multikulturalizmi görməmək mümkün deyil.

Şuşada keçirilmiş "Xarıbülbül" festivalında Azərbaycanda yaşayan xalqların musiqi kollektivlərinin iştirakı dövlətimizdəki mühitin göstəricisidir. Bu gün bütün dinlərdən olan xalqların ölkəmizdə firavanlığını təminə olunmasına, onların bütün imkanlardan istifadəsinə geniş imkanlar açılır.

## "AZƏRBAYCANDA YAŞAYAN BÜTÜN XALQLARIN NÜMAYƏNDƏLƏRİNİN HAMISI BİR NƏFƏR KİMİ ÖLÜMƏ GETMƏYƏ HAZIR İDİ, ÖLÜMƏ GEDİRDİ"

44 günlük Vətən müharibəsində də Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri bir yumruq olaraq birləşdi. Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar".

Azərbaycan tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından artıq dünya üçün bir örnəkdir. Tarixən müxtəlif xalqların və dinlər arasında qarşılıqlı hörmətə və etimada əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin ölkəmizdə mövcudluğu yüksək tolerantlıq ənənələrinin formalaşdığı dünyəvi, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi təqdim edir. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri birgə yaşayır və ölkəmizin uğurlu inkişafına töhfələrini verirlər. Ölkəmizdə bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Təbii ki, müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilib ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmasına əlverişli zəmin yaradıb. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Həmin ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar.

## "ONLAR MƏSCİDLƏRİMİZDƏ DONUZ VƏ İNƏK SAXLAYIRDILAR"

Belə bir ənənəyə sahib olan Azərbaycan təəssüf ki, erməni vandallarının təcavüzünə məruz qalıb. Mənbələrdə göstərilir ki, təkcə XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən silmişdilər. Prezident İlham Əliyev çıxışlarında ermənilərin vandallıq əməllərini ifşa etmişdir. "İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib", - deyərək bildirib ki, Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub.

Cənab Prezident onu da bildirib ki, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur: "Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerlə-yeksan ediblər".

## TOLERANTLIĞININ BARİZ GÖSTƏRİCİSİ - BAKIDA ERMƏNİ KİLSƏSİ

Ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan multikulturalizm ideyasını irəli sürdüyü vaxtda, Ermənistan tərəfindən işğal dövründə saysız-hesabsız abidələrimiz dağıdılmışdır. Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli turbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Fuzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələr işğal dövründə erməni vandallığına məruz qalmışdı. Ermənistanın işğalı nəticəsində saysız mədəni abidələr dağıdılmışdır. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Amma Bakıda erməni kilsəsi qorunubsaxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir.

Qubadlı rayonunun Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

Azərbaycan öz ənənəsinə sadiq olan dövlətdir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsi bəşəri dəyərlərə olan ali münasibətin daha bir təzahürü idi. Dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Təbii ki, hər hansı bir cəmiyyətdə sosial tolerantlığın bərqərar olmasında və multikultural dəyərlərin tərəqqisində siyasi hakimiyyətin iradəsi əvəzsizdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Tatular dəriyə tətbiq olunduğundan, dəri xərçəngləri ilə bağlı araşdırmalar aparılmışdır. Lakin riskin əsl artımı limfa düyünlərində ola bilər.***
SİA mövzu ilə bağlı araşdırma aparıb.

# Xərçəng və TATU



## Limfoma və məlum risk faktorları

Limfoma limfa sisteminin xərçəngidir və adətən limfa düyünləri, dalaq, timus vəzi və sümük iliyi kimi limfa toxumalarında başlayır. Məlum risk faktorlarına immunitet sisteminin pozğunluqları, müəyyən infeksiyalar (məsələn, Epstein-Barr virusu), müəyyən kimyəvi maddələrə məruz qalma və ailədə limfoma tarixi daxildir. Son illərdə limfoma hallarının qlobal artımı müşahidə olunur və bu artımın səbəblərini anlamaq vacibdir.

## Tatu və limfoma riski

Son bir neçə onillikdə tatuların populyarlığı kəskin şəkildə artmışdır. Bu gün Avropada aparılan bir sıra tədqiqatlar döymənin yayılmasının 20%-dən yuxarı olduğunu bildirir və ABŞ-da yayılma təxminən 30% qiymətləndirilir. Əksər insanlar ilk döymələrini gənc yaşda edirlər, bu, demək olar ki, onun ömür boyu döymə mürəkkəbinin kimyəvi kompo-



nentlərinə məruz qalması deməkdir. Bununla belə, döymələrin sağlamlığa uzunmüddətli təsirlərini anlamaq üçün araşdırmalar yeni başlamışdır.

## Tatu mürəkkəblərinin kimyası və onların orqanizmə təsiri

Tatu mürəkkəbləri piqment sintezindən əlavələr və prekursorlar və əlavə məhsullar olan üzvi və qeyri-üzvi rəngli piqmentlərin qarışıqlarıdır. Rəngli mürəkkəblərdə ilkin aromatik aminlər (PAA), qara mürəkkəblərdə isə çox vaxt polisiklik aromatik karbohid-



rogenlər (PAH) olur. Bütün rənglərin mürəkkəblərində arsen, xrom, kobalt, qurğuşun və nikel kimi metallar ola bilər. Bu kimyəvi maddələrin əhəmiyyətli bir hissəsi Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi tərəfindən kanserogenlər kimi təsnif edilmişdir.

Tatuirovka zamanı mürəkkəb dəri baryerini təkrar-təkrar deşərək dermisə yeridilir. Dəri baryerini keçən hər hansı bir antigen yerli immunoloji reaksiyaya başlayır və bu antigenlər limfa düyünlərinə daşınır. Tatu mürəkkəbinin limfa düyünlərinə keçməsi olduqca yayılmış haldır. İnyeksiya edilən piqmentin 32%-nin 6 həftədən sonra yerdəyişməsi və zamanla 99%-ə qədər arta biləcəyi təxmin edilir.

Kliniki şəraitdə, tatulu şəxslərdə piqmentli və genişlənmiş limfa düyünləri onilliklər ərzində təsvir edilmişdir. Qara və rəngli döymə piqmentlərinin insan limfa düyünlərinə daşındığı və döymə iynəsinin aşınmasından metal hissəcikləri topladığı təsdiq edilmişdir. Limfa düyünləri sürətlə çoxalan immun sisteminin hüceyrələrini ehtiva edir və kanserogen kimyəvi maddələr üçün həssas hədəflərdir. Həlledicilərə, alov gecikdiricilərə, pestisidlərə və saç boyalarına məruz qalma nəticəsində yaranan immunoloji pozulmanın limfoma əmələ gəlməsində əsas rol oynadı-



ğına dair artan sübutlar var.

İsveçdəki Lund Universitetinin tədqiqatçıları 2007-2017-ci illər arasında İsveçdə limfa xərçəngi diaqnozu qoyulmuş 20-60 yaş arası 11.905 nəfərin məlumatlarından istifadə edərək tatu və xərçəng arasında əlaqəni araşdırıblar. Tədqiqatçılar müəyyən ediblər ki, tatu etdirən insanlarda limfoma inkişaf riski 21 faiz yüksəkdir.

Tədqiqatçılar döymədə istifadə edilən mürəkkəbin tərkibində kanserogen kimyəvi maddələrin olduğunu və bu kimyəvi maddələrin döymə zamanı dəri baryerini deşərək











bədənə daxil olduğunu və xərçəng riskini artırdığını bildiriblər.

Döymənin ölçüsü ilə xərçəng riski arasında heç bir əlaqə olmadığını qeyd edən tədqiqatçılar, ölçüsündən asılı olmayaraq döymənin bədəndə iltihabı tətiklədiyini və limfa xərçəngi riskini artırdığını bildiriblər.

## İsveç Araşdırması

İsveç milli sağlamlıq məlumatlarından istifadə edərək, tədqiqatçılar əhaliyə əsaslanan bir vəziyyətə nəzarət araşdırmasında döymənin lenfoma riskini artırıb-artmadığını araşdırdılar. Onlar həmçinin ilk döymə ilə indeks ili arasındakı vaxtı nəzərə alaraq məruz qalma-cavab münasibətlərini və məruz qalma müddətinin təsirini araşdırdılar. Nəhayət, döymə məruz qalma və lenfoma alt tipləri arasındakı əlaqəni araşdırdılar.

Baş müstəntiq Dr. Christel Nielsen izah etdi ki, tatu mürəkkəbi dəriyə vurulduqda orqanizm onu yad maddə kimi qəbul edir və immunitet sistemi aktivləşir. Tatu mürəkkəbinin çox hissəsi dəridən limfa düyünlərinə daşınır və orada toplanır.

## Tədqiqatın təfərrüatları və nəticələri

Tədqiqat çərçivəsində 2007-2017-ci illər arasında limfoma diaqnozu qoyulan 2938 xəstə müəyyən edilib. Bu xəstələrdən 1398-i sorğuya cavab verib. Nəzarət qrupunda 4193 nəfər sorğuda iştirak edib.

Limfoma diaqnozu qoyulan xəstələr əhali reyestrləri vasitəsilə müəyyən edildi və sonra eyni cins və yaşda olan, lakin limfoması olmayan bir nəzarət qrupuna uyğunlaşdırıldı. Tədqiqat iştirakçıları həyat tərzi faktorlarını qiymətləndirmək üçün döymələrinin olub-olmadığını göstərən bir anket doldurdular.

Limfoma xəstələrinin 21% və nəzarət xəstələrinin 18% -ində döymə olduğu bildirildi.

Siqaret çəkmə və yaş kimi digər müvafiq amillər nəzərə alındıqdan sonra, döymələri olan şəxslərdə limfoma inkişaf riskinin 21% daha yüksək olduğu aşkar edilmişdir.

Tədqiqatçılar əvvəlcə döymə ölçüsünün limfoma riskinə təsir göstərə biləcəyini fərz etdilər. Məsələn, onlar düşündülər ki, tam bədən döyməsi kiçik bir döymə ilə müqayisədə limfoma riskini artıra bilər. Bununla belə, döymənin əhatə etdiyi bədən səthi sahəsi ilə limfoma riski arasında heç bir əlaqə tapılmadı.

Tədqiqatçılar bunun niyə belə olduğunu hələ bilmədiklərini, ancaq döymənin bədəndə aşağı dərəcəli iltihabı tetikleye biləcəyini və bu da öz növbəsində ölçüsündən asılı olmayaraq xərçəngə səbəb ola biləcəyini təxmin edə bilərlər.







***Ayşən Vəli***

# BMT Fransanı cəzalandıra bilər

## BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirildiyi məkanda Niderland və Fransa müstəmləkəçiliyinə qarşı aksiya keçirilib







Müasir dünya xalqların dinc, sülh şəraitində yaşamasını özündə ehtiva edir. Həm də dünyamız müstəmləkəçiliyi, insanlığa qarşı olan cinayətləri qətiyyətlə rədd edir. Yeni bəşəriyyət informasiya-texnologiya, düşüncə və təfəkkür baxımından tamamilə dəyişib sivil, demokratik bir dünya düzəni qurulduğu üçün hər hansı bir zorakılıq, insan hüquq və azadlıqlarının pozulması yolverilməzdir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, dünyada sülhün və təhlükəsizliyə, azad, firavan cəmiyyətlərin quruculuğuna töhfə verməli olan dövlətlər əks mövqe və fəaliyyət yolu sərgiləyirlər. Dövlət və şəxsi maraqlarını yeritmək üçün sivil, azad dövlətlərə hərbi müdaxilələr də edib, mülki insanları kütləvi şəkildə qətlə yetirib, şəhər və qəsəbələri xarabazarlıqlara çevirirlər. Bu səbəbdəndir ki, hazırda dünyamız təlatümlü, həm də narahat bir dövrünü yaşayır. Hətta bir nüvə silahı ilə dünyamızın dağılması riski altında olduğu qeyd olunur. Şimali Koreyanın rəhbəri Kim Çenin ABŞ-ı nüvə silahı ilə təhdid etməsi fonunda Rusiya prezidenti Vladimir Putinin "Rusiyasız dünya bizim nəyimizə lazımdır" deyərək Qərbi və ABŞ-ı nüvə silahı ilə hədələməsini misal olaraq göstərmək olar. Bəşəriyyət üçün ən təhlükəli dövlət isə Fransanın olduğunu desək, səhv etmərik. Çünki bu yarım vəhşi dövlət son yüz illər ərzində milyonlarla insanın həyatına son qoyub, ölkələrin dağılmasına, şəhər və kəndlərin yer üzündən silinməsinə səbəbkar olub. Təkcə Əlcəzairin işğalı zamanı Fransa ordusu tərəfindən 2 milyondan çox əlcəzairli öldürülmüş, yüz minlərlə insan isə yaralanmış, sağlamlığından məhrum edilmişdir. Fransa Əlcazairdə insanları məhv etməklə kifayətlənməyərək, ətraf mühitindən sıradan çıxmasını həyata keçirib. 1960-1966-cı illərdə Əlcəzairin Böyük Səhrada payına düşən Reqqan və İn Ekker adlı ərazilərində Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilmişdir ki, onlardan da 11-i yeraltı sınaqlar olmuşdur. Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri bu günədək Əlcəzair tərəfinə təqdim etmir. Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən bu günədək imtina edir. Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzairə tarixi səfəri zamanı mövcud faktları dünya ictimaiyyətinin diqqətinə çatdıraraq Fransanın Əlcəzairə, Ermənistanın isə Azərbaycana qarşı eyni terror metodundan istifadə etdiyini bildirmişdir: "Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı".

### Fransa azad, sivil dünyaya qarşıdır

Dünya bütün sahələrdə dəyişsə də, Fransanın qəsbkar və müstəmləkə siyasəti davam etdirilir. Fransanın işğal etdiyi Cibuti, Martinika, Yeni Kaledoniya, Qvadelupa, Boner, Sen-Martin, Fransız Polineziyası, Mayot, Fransız Qvianası, Nigeriya, Korsika, Tunis, Qayanadan və Çadda insanlığa və bəşəriyyətə qarşı amansız vəhşiliklər törədilib. Yüz minlərlə insan Fransa hakimiyyəti tərəfindən öldürülüb, həbsxanalara atılaraq işgəncələrə, vəhşiliklərə məruz qalıb. Ölkədaxili vəziyyət də ürəkaçan deyil. Hakimiyyət müsəlmanlara qarşı təqiblər həyata keçirir, milli zəmində ayrı-seçkiliklərə yol verir. Vəziyyətin məcrasından çıxdığını anlayan hakimiyyət səhv siyasət apardıqlarını etiraf edirlər. 2020-ci ilin yanvar ayında Fransanın daxili işlər naziri Kristof Kastaner 2019-cu ildə Fransada antisemitizm hərəkətlərinin 2018-ci il ilə müqayisədə 27 faiz, müsəlmanlara qarşı hərəkətlərin 54 faiz artdığını, xristianlara qarşı hərəkətlərin sabit, lakin ən yüksək səviyyədə qaldığını etiraf etmişdir. Həmçinin o, əsasən, təhdid xarakteri daşıyan irqçi və ksenofob hərəkətlərin 2018-2019-cu illər ərzində iki dəfədən çox artaraq 496-dan 1142-yə yüksəldiyini bildirib. 2019-cu ilin fevral ayında Fransada yəhudi qəbiristanlığında təxminən 80 məzara boya ilə svastika və digər nasist simvolları çəkilmiş, antisemit şüarlar yazılmışdır. Ümumiyyətlə, 2019-cu ildə Fransanın şərqində yerləşən yəhudi qəbiristanlıqlarında 180-dən çox məzar nasist simvolları ilə təhqir edilib. Faktlara istinadən demək olar ki, dünənə qədər Fransanın vəhşiliklərinə susan dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar artıq rəsmi Parisin soyqırımı siyasətinə etiraz etməyə başlayıblar. Azərbaycanın Fransanın müstəmləkə siyasətinə qarşı sərt mövqe bildirməsi və işğal altında əzilən xalqlara hər cür dəstək göstərməsi xüsusilə seçilir və demokratik düşüncəli xalqlar tərəfindən alqışlanır. Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasında olmasını bildirməsi dünya KİV-ləri və dövlətlər tərəfindən əsas diqqət çəkilən və haqlı hesab edilərək dəstəklənən mövqelərdəndir. Prezident İlham Əliyev çıxışında bildirdi ki, artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur: "Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi həllə də yubanır".

Sammitdə çıxışında Prezident İlham Əliyev onu qeyd etdi ki, 1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib: "Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyasi məhbuslar dərhal azad olunmalıdır.Əgər Avropanın əsas diplomatı Josep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək".

### COP29 konfransında Fransanın qəsbkar siyasətinə qarşı etiraz aksiyaları keçirildi

Sivil, demokratik dünya açıq şəkildə Fransanın qəsbikar, işğalçı siyasətinə qarşı sərt və qəti etrazını bildirdi. Artıq vəziyyət o həddə çatıb ki, Birləşmiş Millətlər Təşkilatının müvafiq strukturları da rəsmi Paris rejiminin soyqırımı siyasətinə qarşı çağırışlarla çıxış edir, bəyanatlarla səslənəndir. BMT-nin İnsan Hüquqları Komitəsi Fransanın neokolonializm siyasətini sərt tənqid edən hesabatla çıxış edib. Bildirilib ki, rəsmi Paris Yeni Kaledoniyada etirazların qurbanlarına kompensasiya ödəməlidir. BMT-nin İnsan Hüquqları Komitəsi Fransanı Yeni Kaledoniyada etirazçılara qarşı həddindən artıq güc tətbiq edənləri məsuliyyətə cəlb etməyə və Fransa hakimiyyətinin bu cür hərəkətlərinin qurbanlarına kompensasiya ödəməyə çağırıb. Komitənin bəyanatında qeyd olunub ki, Fransanın hüquq-mühafizə orqanları Yeni Kaledoniyada etirazlar zamanı həddindən artıq güc tətbiq edib və bu, bir neçə nəfərin ölümünə və yüzlərlə yaralının olmasına səbəb olub, onların arasında Kaledoniyanın yerli xalqı olan kanaklar da var. "Komitə həmçinin nümayişlərdə asayişin qorunması zamanı həddindən artıq güc tətbiq edilməsindən və 2024-cü ilin may ayından Yeni Kaledoniyada konstitusiya qanununa təklif olunan dəyişikliklərə qarşı etirazlar başlayandan bəri hüquq-mühafizə orqanları əməkdaşlarının həddindən artıq güc tətbiq etməsi və bunun bir neçə nəfərin ölümünə səbəb olması ilə bağlı dərin narahatlıq keçirir", - deyə qurumdan bildirilib.

BMT qurumu qeyd edib ki, Fransa həmçinin xarici miqrantların hüquqlarını pozur, onları İtaliya sərhədindən məcburi geri qaytarır və sığınacaq prosedurlarına çıxışlarını məhdudlaşdırır. Bu cür hərəkətlərlə Fransa hakimiyyəti insanların həyatına etinasız yanaşdığını nümayiş etdirir: "Komitə həmçinin Fransanı miqrantları kifayət qədər layiqli mənzillə təmin etmək səylərini gücləndirməyə və sərhəd bölgələrində, xüsusilə Fransa-Britaniya sərhədində, eləcə də Mayotda sığınacaq axtaranlarla, qeyri-qanuni miqrantlarla pis rəftara son qoymağa təkidlə çağırır. Fransa Yeni Kaledoniya ilə yanaşı, Fransız Polineziyasının da yerli xalqlarının öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsini asanlaşdırmalı və sürətləndirməlidir. Paris öz müqəddəratını təyinetmə prosesi ilə bağlı hər hansı bir tədbir həyata keçirməkdən öncə hər iki bölgənin yerli xalqları ilə məsləhətləşərək onların razılığını almalıdır".

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi məkanda Niderland və Fransa müstəmləkəçiliyinə qarşı aksiya keçirilib. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə baş tutan tədbirdə bu ölkələrin müstəmləkəsindən əziyyət çəkən dövlətlərin nümayəndələri iştirak ediblər. Aksiya iştirakçıları "Yaşıl və dekolonizasiya olunmuş dünya naminə həmrəylik" adlı şüar qaldırıb. Eyni zaman da Bakı Təşəbbüs Qrupu (BTQ) və SAHEL Konfederasiyasını təmsil edən ASRAD təşkilatı COP29 çərçivəsində "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda tədbir keçirib. Tədbirdə Fransanın Afrikadakı keçmiş müstəmləkələrindən, digər fransız dənizaşırı ərazilərindən, Niderland koloniyalarından olan nümayəndələr, xarici və yerli jurnalistlər iştirak ediblər. Tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunub. Çıxış edənlər müstəmləkəçilikdən miras qalan qeyri-bərabərlik, resursların ədalətsiz və qanunsuz istifadəsi, qitənin inkişafını ləngidən səbəblər barədə ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin investisiya sahəsində yaranan problemlər, dayanıqlı inkişaf və kənar müdaxilə olmadan Afrikada investisiyaların perspektivləri müzakirə olunub. Çıxışlarda qeyd olunub ki, müstəmləkəçiliyin əsas məqsədi Afrika ölkələrinin və dənizaşırı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməkdir. Müstəmləkə istismarı ətraf mühiti çirkləndirən intensiv kənd təsərrüfatı və mədənçilik sahələrində daha ağır nəticələr doğurur. Monokultura torpağı tükəndirib, bəzi ölkələrdə və ərazilərdə səhralaşmaya səbəb olub. Müstəmləkəçiliyə və Fransada insan hüquq və azadlıqlarının pozulmasına qarşı dünyanın tərəqqipərvər xalqlarının və sivil, demokratik ölkələrinin apardığı fəal mübarizə onu deməyə əsas verir ki, rəsmi Paris vandal siyasətindən əl çəkə bilər. Yeni müstəmləkəçiliyə son qoya və ölkədə azad cəmiyyətin qurulmasına, insan azadlıqlarına hörmət etmək yolunu tuta bilər. Əks halda BMT çərçivəsində Fransanın ciddi şəkildə cəzalanması baş verəcək.

***İLHAM ƏLİYEV***

# Panel müzakirələri: sülh, yaşıl dünya və sağlam qida

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Yaşıl zonada mütəmadi panel müzakirələr təşkil olunur. Bu müzakirələrdən biri də "Minatəmizləmə və kənd təsərrüfatı vasitəsilə sülh, torpaq və ekosistemlərin bərpası" mövzusunda təşkil olunub. Tədbirdə müharibə nəticəsində dağılmış ərazilərin bərpasına və kənd təsərrüfatı vasitəsilə yerli icmaların canlandırılmasına yol açan mina təmizləmə səylərinin transformativ təsiri müzakirə olunub. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev sessiya iştirakçılarını sülhün, torpağın və ekosistemlərin bərpası üçün birgə çalışmağa dəvət edib. O bildirib ki, münaqişədən zərər çəkmiş torpaqların, təbiətin və ekosistemlərin bərpası üçün birgə addımlar atılmalıdır. Minalarla çirklənmiş ərazilərdə təhlükəsizlik və inkişaf proseslərinin əngəlləndiyini deyən Mirzəyev yalnız torpaqları minalardan təmizləmək haqqında deyil, o torpaqların gələcək nəsillərə sülh içində ötürülməsi haqqında işlər görülməlidir. Çünki torpağın minalardan azad edilməsi, orada həyatın yenidən canlanması, kənd təsərrüfatının inkişafı, əhalinin köçürülməsi, iqtisadi fəaliyyətin bərpası və yeni bir ekosistemin yaradılması deməkdir.

Paneldə çıxış edən QHT Şöbəsinin rəhbəri Vook Cin Çanq "Sülh naminə görülən təşəbbüslərdə QHT-lərin rolu", Azərbaycan Minatəmizləmə Agentliyinin Maarifləndirmə və Zərərçəkənlərlə İş şöbəsinin müdiri Ramil Əzizov "Ekosistemin qorunmasında mina təhlükəsi ilə mübarizənin rolu", "Sülhün Kökləri" təşkilatının baş direktoru və təsisçisi Heidi Kuhn post-konflikt əraziləri məhsuldar kənd təsərrüfatı ərazilərinə çevirmək üçün strategiyalar, iqtisadi imkanlar və davamlı təcrübələr, "Minalardan üzüm bağlarına" təşəbbüsü, mina aksiyası üzrə beynəlxalq ekspert Emil Həsənov "Kənd təsərrüfatı üçün nəzərdə tutulmuş ərazilərdə mina təmizləmə və torpaq bərpasında texniki çətinliklər və bu məsələlərin həllində beynəlxalq əməkdaşlığın rolu", Beynəlxalq Bilik İqtisadiyyatı və Müəssisələrin İnkişafı Təşkilatının (IKED) sədri Tomas Andersson "İqtisadi artımın ətraf mühitin qorunması ilə balanslaşdırılması", Bərpa Olunan Enerji və Enerji Səmərəliliyi üzrə Ərəb Platformasının prezidenti Kamel Esseghairi isə "Post-konflikt ərazilərdə suvarma, torpağın bərpası və icmaların yaşayış imkanlarını dəstəkləmək üçün bərpa olunan enerjinin praktik tətbiqləri" mövzusunda çıxışlar ediblər.

***

COP29 tədbirləri arasında Azərbaycanın COP29 Sədrliyi çərçivəsində yaradılmış Birgə Təşəbbüs-Azərbaycan, Misir, Almaniya, İtaliya, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Beynəlxalq Miqrasiya Təşkilatının (İOM) birgə təşkilatçılığı ilə "İqlim və Sülh: heç kimi arxada qoymamaq naminə birgə fəaliyyət" adlı yüksəksəviyyəli panel iclası da vardı. Tədbirdə COP29-un sədrliyinin iqlim dəyişikliyi sahəsində konkret həlləri nəzərdə tutan təşəbbüsləri, eləcə də İqlim və Sülh Fəaliyyəti üzrə Bakı konsepsiyası, həmçinin beynəlxalq sülhə iqlimlə əlaqəli təhlükələrin qarşısının alınması sahəsində əməli addımları ehtiva edən "Bakı İqlim üçün Sülh Çağırışı" ilə bağlı müzakirələr aparılıb.

İtaliya, Misir, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya və Uqanda nümayəndələri, eləcə də Beynəlxalq Miqrasiya Təşkilatı, BMT-nin İnkişaf Proqramı və digər beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanın səylərini gələcəyin təhdidlərinə qarşı əməli addımlar kimi yüksək qiymətləndirib, ölkəmizin təşəbbüslərinə dəstəklərini ifadə ediblər. İclasda çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, sülh Azərbaycanın əsas prioritetidir: "İqlim dəyişikliyi qida təhlükəsizliyi ilə bağlı problemi də gücləndirir, su qıtlığını və torpağın deqradasiyasını sürətləndirir. Bunlar da öz növbəsində miqrasiyaya aparır. İqlim dəyişikliyinin yaratdığı fəlakətlər qeyri-sabitliyin dərinləşməsinə səbəb olan münaqişələr üçün katalizator rolunu oynayır. Münaqişələr və onların nəticələrinin infrastruktura, torpağın deqradasiyasına və biomüxtəlifliyə dağıdıcı təsirləri iqlim böhranını daha da artıracaq və sülhə, dayanıqlılığa və inkişafa zərər gətirəcək".

***

COP29 çərçivəsində Yaşıl Zonada Milli QHT Pavilyonunda Pan-Afrika İqlim Ədaləti Alyansı (PACJA) "İqlim böhranının ön cəbhəsində olan icmalar üçün inklüziv və hərtərəfli iqlim tədbirlərini təşviq edən iqlim maliyyəsi modelləri" mövzusunda forum keçirib. Forumda Alyansın rəhbəri Jozef Mikita Mvenda bildirib ki, PACJA 48 Afrika ölkəsindən 1000 QHT-ni özündə birləşdirən təşkilatın ümumi mövqeyini ifadə edir. Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, iqlim maliyyəsinə çıxışı təşviq edən modellər və yanaşmalar mühüm əhəmiyyətə malikdir. Panel müzakirələrində PACJA təşkilatlarının ekspertləri - Cessika Mvenza, Ruçi Tripati də iştirak ediblər. PACJA-nın proqramlar və tədqiqatlar üzrə rəhbəri Çarlz Mvanqi daha əlçatan maliyyələşdirmə mexanizmləri barədə məruzələrlə çıxış ediblər. Onlar Afrikanın təcrid olunmuş icmalarının səsini gücləndirmək üçün Azərbaycanın yaratdığı imkanı yüksək qiymətləndirib.

***

COP29 çərçivəsində Yaşıl zonada Türkiyə pavilyonunda "Polad sənayesinin gələcəyi: karbonlaşma, dairəvi iqtisadiyyat və ortaya çıxan problemlər" adlı panel də keçirilib. Panel İstanbul Mədən və Metal İxracatçı Birliklərinin (İMMİB) təşkilatçılığı ilə reallaşıb. Tədbirdə çıxış edən Türkiyə İxracatçılar Məclisi Baş katibinin müavini Kübra Ulutaş bildirib ki, təşkilat 150 mindən çox əmtəə və xidmət ixracatçılarını bir araya gətirir. Birləşmiş Millətlər Universitetinin böyük elmi işçisi Sanae Okamoto çıxışında qeyd edib ki, yaşıl keçidə nail olanda sürətlənən kənd innovasiya ekosistemini dəstəkləmək üçün məkanın və icmanın olması çox vacibdir. Həmçinin inkubasiya sistemlərinin mövcudluğu, düzgün işləyən avadanlıq və infrastrukturun, logistikanın, həmçinin regionda dəstəkləyici lokal şəbəkələrin olub-olmadığını yoxlamaq da şərtlərdəndir.

***

COP29 tədbiri çərçivəsində "Azərsun Holdinq" tərəfindən "Keçidin gücləndirilməsi: Gələcəyin enerjisini bugündən maliyyələşdirmək" adlı panel müzakirəsi də təşkil edilib. Panel müzakirəsində "Azərsun Holdinqin" İdarə Heyətinin üzvü Savaş Uzan, Misirin ətraf mühit nazirinin müşaviri Ömər Əbdüləziz, "İnogem Alliance"nin prezidenti Anjelik Dikson, "Antea Group"un baş direktoru Aleks Fürqüson, bərpa olunan enerji üzrə ekspert Şərəf Əsgərova, "Tonkin and Tylor" şirkətinin icraçı rəhbəri Bret Ogilvi iştirak ediblər. Panel iştirakçıları yaşıl enerjiyə keçid, iqlim maliyyələşməsi mövzusunda geniş müzakirələr aparıb. Qeyd edək ki, panel müzakirələr COP29 davam etdiyi müddətdə mütəmadi təşkil olunacaq.

***

Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində "Xalis Sıfır Xərtəsi: Dayanıqlı enerji sisteminin qurulması" mövzusunda da panel keçirilib. Tədbirdə Paris Sazişində qeyd olunan əsas məqsəd və ssenarilərə diqqət yetirilib, xalis sıfır emissiyalarına doğru qlobal keçid araşdırılıb. Paneldə sənayelərin yeni enerji modellərinə necə keçdiyi və yaşıl texnologiyalara sərmayə qoyduğu barədə mövzular gündəmə gətirilib. ADA Universitetinin professoru Damyan Krnyevik Miskoviçin moderatorluğu ilə keçirilən tədbirdə COP29-un baş icraçı direktoru Elnur Soltanov, "SOCAR Green" şirkətinin baş direktoru Elnur Musayev, Moldova Respublikası Energetika Nazirliyinin karbonsuzlaşdırma üzrə dövlət katibi Karolin Novak və Macarıstanın Energetika Nazirliyində iqlim üzrə xüsusi tapşırıqlar səfiri Barbara Botos keçid dövrünün enerji sistemlərinin iqtisadi problemlərini, o cümlədən infrastruktur investisiyaları, siyasət dəyişiklikləri və texnoloji tərəqqini müzakirə ediblər.

***

"YARAT" Müasir İncəsənət Məkanı COP29 çərçivəsində Azərbaycan rəssamı Aida Mahmudovanın "Funksionallıqdan kənar" sərgisini açıb, həmçinin "İncəsənət və iqlim dəyişikliyi" adlı birgünlük simpozium təşkil edib. "Funksionallıqdan kənar" Aida Mahmudovanın Azərbaycan mədəni irsinin dərindən araşdırılması istiqamətində apardığı bədii təcrübələrini əks etdirən sərgidir. Rəssam təbiətdən ilhamlanaraq onun relyefi, canlı aləmi, iqlim şəraitinin möhtəşəm gözəlliyini daima öz yaradıcılığında ifadə edir. "İncəsənət və iqlim dəyişikliyi" simpoziumu incəsənət təbliğatı, iqlim qayğısı və dayanıqlı gələcəyə həsr olunub. Bu unikal tədbirin ideya və konsepsiya müəllifi Aida Mahmudovadır. Dörd fərqli mövzuda keçirilən panel sessiyalardan ibarət simpoziumda çıxış edən spikerlər müxtəlif xarici ölkələrdən dəvət olunublar.

***

Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində "Karbon qiymətqoyma: mövcud problemlər və yeni strategiyalar" mövzusunda panel müzakirəsi də keçirilib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən təşkil edilmiş tədbirdə karbon emissiyaları ilə mübarizənin effektiv üsulları müzakirə edilib. Tədbirdə DVX-nin rəisi Orxan Nəzərli çıxış edib. O, Bakıda keçirilən COP29 çərçivəsində "Karbon qiymətqoyma: mövcud problemlər və yeni strategiyalar" mövzusunda panel müzakirəsinin təşkilinin bu sahədə ədalətli yanaşmalar üçün yolların araşdırılması və qlobal əməkdaşlığın təşviqi baxımından əhəmiyyətini qeyd edib.

Qlobal iqlim dəyişikliyi ilə mübarizənin ən təsirli alətlərindən biri kimi karbon qiymətqoymanın istixana qazı emissiyalarının azaldılması məqsədilə iqtisadi aktorları hərəkətə gətirən və dayanıqlı inkişafı təşviq edən mühüm bir vasitə olduğunu bildirib. Panel müzakirəsinin əsas mövzusu karbon qiymətləri sahəsində hazırda qlobal miqyasda mövcud olan alətləri nəzərdən keçirmək, cari çağırışları və problemləri müəyyən etmək və bununla da universal həll yollarını araşdırmağa yönəlmiş yeni strategiyalar yaratmaq olub. Müzakirələrdə OECD-nin Vergi siyasəti və statistika şöbəsinin rəhbəri Kurt Van Dender, Harvard Universitetinin təmsilçisi İlay Sandler, "Ernst & Young" şirkətinin nümayəndəsi Kasia Klaçinska Lyuis, Beynəlxalq Valyuta Fondunun (BVF) İqlim siyasəti şöbəsinin rəhbəri Dora Benedek, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva aktiv iştirak ediblər.

***

Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda panel müzakirəsi təşkil edilib. Tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva aparılacaq müzakirələrin uşaqların rifahına verə biləcəyi töhfəni qeyd edib. Hava çirklənməsi probleminin nəticəsi olaraq hər il milyonlarla insanın həyatını itirdiyini vurğulayan Leyla Əliyeva qeyd edib ki, adıçəkilən problemin aradan qaldırılması üçün qlobal həmrəylik və dayanıqlı texnologiyalardan istifadə əhəmiyyətli rol oynayır.

IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən müxtəlif layihə və tədbirlər barədə də danışan Leyla Əliyeva ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, "Məktəb bağları" layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələri iştirakçılarının diqqətinə çatdırılıb. Qeyd edək ki, tədbirdə, həmçinin Azərbaycanın səhiyyə naziri Teymur Musayev, CAF-ın baş icraçı direktoru Jane Burston, BMT-nin Uşaq Fondunun (UNICEF) Sağlam Uşaqlar üçün Sağlam Ətraf Mühit Qlobal Proqramının rəhbəri Abheet Solomon, Botnar Fondunun vitse-prezidenti, "Partnership for Maternal, Newborn & Child Health" təşkilatının İdarə heyətinin üzvü Flavia Bustreo və gənc ətraf mühit fəalı Francisco Vera iştirak ediblər.

***

COP29 çərçivəsində "Sağlamlığa Xidmət" İctimai Birliyi və Beynəlxalq Stop Vərəm Tərəfdaşlığının birgə təşkilatçılığı ilə noyabrın 16-da iqlim dəyişmələrinin sağlamlığa təsiri, o cümlədən antimikrobial rezistentlik mövzusunda yüksəksəviyyəli müzakirə keçirilib. Tədbirdə Kamerundan olan deputat Nqayap Pier Flambe, Kenya parlamentinin deputatı Stefen Myul, Zambiya parlamentinin üzvü Xristofer Xalila, həmçinin Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Pərvanə Vəliyeva, İlham Məmmədov, Müşfiq Məmmədli iştirak ediblər. Məruzəçilər iqlim dəyişmələrinin qlobal sağlamlıq üçün ciddi təhdidlər və yeni sağlamlıq riskləri yaratdığını vurğulayıblar.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
17 noyabr 2024-cü il

# Kiçik yaşlı uşaqların psixikasına internetin təsiri

## PSİXOLOQ FİKRİ

”Son dövrlərdə kütləvi informasiya vasitələrində, mətbuatda uşaqların texnikaya, kompüterə həddən çox meyil göstərməsi nəticəsində onların ünsiyyət sferasında, sağlamlığında ciddi problemlərin yaranması ilə bağlı xeyli sayda məlumatlara rast gəlmək olur. Əlbəttə, müasir insan üçün, xüsusən də XXI əsrin ixtisaslı kadrı üçün kompüterdən istifadə etmək, onun dərinliklərinə bələd olmaq labüddür. Məhz buna görə də, son vaxtlar, valideynlər uşaqlarının gələcəyini düşünərək kiçik yaşlarından övladlarına kompüter alır, onları müxtəlif kurslara aparır və bunu faydalı hesab edirlər. Lakin bu, bəzən onunla nəticələnir ki, kompüter uşağın əsas ”ünsiyyət partnyoruna” çevrilir və valideynlərilə, yaşıdlarıyla olan ünsiyyətini əvəzləməyə başlayır”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Günəş Əfəndiyeva bildirib.



Onun sözlərinə görə, uşaq əksər vaxtını ”hissiyyatsız”, ”cansız” maşınla təklikdə, kompüter oyunlarının fantastik aləmində, internet dolanbacında keçirir. Buradan onun ”qazandıqları” isə, əksər hallarda, heç də ürəkaçan olmur. İnternetin daha çox populyar olduğu ölkələrdə valideynlər uşaqlarının həmyaşıdları ilə ünsiyyətdən qaçdığını, onlarda kitab oxumağa meyilin azalmasını göstərirlər. Son illər psixoloqların apardığı tədqiqatlarda da, internetdən həddən çox istifadə edən uşaqlarda aqressivliyə, zorakılığa meyilin yüksək olması, fantaziyalara, yaradıcılığa meyilin zəifləməsi, onlarda təfəkkürün analiz-sintez fəaliyyətinin çətinliklə getdiyi müəyyən olunmuşdu. Ümumiyyətlə, uşaqların məktəb yaşına qədər kompüterdən istifadəsi məqsədəuyğun deyil. Əvvəla, təcrübə onu göstərir ki, uşaqlar məktəb dövründə kompüterdən istifadəni öyrəndikdə belə yüksək nailiyyətlər əldə edə bilirlər. Digər tərəfdən, 3-4 yaşından həddən artıq kompüterdən istifadə edən uşaqların böyüyəndən sonra bu müddət ərzində elə bir şey öyrənmədiyinin şahidi olar. Çünki, erkən dövrdə uşağın əqli qabiliyyətləri onu ətrafda, real həyatda baş verənlərdən ayıran hansısa texnikanın köməyi ilə deyil, ətraf mühitlə qarşılıqlı əlaqədə, onun aktiv qavranılmasında inkişaf edir. Hansısa informasiyanı uşağa aşılamaq üçün onu kompüter arxasında otuzdurmaqdansa, əlindən tutub real həyatda onu göstərmək daha faydalı olar. Məsələn, heyvanlar haqqında, heyvanxanaya, bitkilər haqqında botanika bağına və ya adi parklara gəzintiyə çıxarmaq, mədəni inkişafı üçün kukla teatrına apararaq, onunla gördüklərini müzakirə etmək uşağın əqli qabiliyyətlərinin inkişafı baxımından əvəzedilməz rol oynaya bilər.

Psixoloqun verdiyi məlumata görə, valideynlər unutmamalıdırlar ki, uşağın normal psixi inkişafı üçün ünsiyyət və kollektiv oyunlar, onunla gördükləri və eşitdiklərini müzakirə etmək faydalı olduğu qədər də zəruridir: ”Belə ki, internetdən nə qədər gözəl informasiyalar götürməsindən asılı olmadan, uşağın inkişafı və tərbiyəsində valideynin təsirini, uşağı istiqamətləndirilməsini heç bir texnika əvəz edə bilməz. Ümumiyyətlə, qeyd etmək istərdim ki, nəinki kiçik yaşlı, hətta daha böyük yaşlarda olan uşaqların belə, kompüterdən istifadəsi böyüklər tərəfindən nəzarət olunmalıdır. Onlara evdə, məktəbdə kompüterdən istifadənin mədəniyyəti aşılanmalı, müasir texnologiyalardan sui-istifadənin nəticələri haqqında məlumatlar verilməlidir. Bəzi hallarda hətta böyüklərin nəzarəti altında, məhdud vaxt çərçivəsində uşaqların kompüter arxasında vaxt keçirməsinə imkan verilməsi məqsədəuyğun olardı”- deyə psixoloq Günəş Əfəndiyeva bildirib.

***Afət Tahirqızı***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# ”Motivasiya hiss etmədiyim gün futbolu buraxacam”

***Portuqaliya millisinin ulduz futbolçusu Kriştianu Ronaldu karyerasını nə vaxt başa vuracağı ilə bağlı sualı cavablandırıb. 39 yaşlı hücumçu UEFA Millətlər Liqasında Polşa ilə matçdan (5:1) sonra xarici KİV-lərə açıqlamasında qeyd edib ki, hələ də futboldan həzz almaq istəyir.***




SİTAT: ”Mən, sadəcə, həzz almaq istəyirəm. Təxliklə 40 yaşım olacaq. Motivasiya hiss etdiyim müddətdə futboldan həzz almaq istəyirəm və oynamağa davam edəcəyəm. Motivasiya hiss etmədiyim gün karyeramı başa vuracağam”.

# COP29 restoranlara necə təsir edib?

## AYDINLIQ GƏTİRİLDİ



Məlumdur ki, Məlumdur ki, Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyası (COP29) davam edir. Noyabrın 11-də start götürən tədbirdə dünyanın təxminən 190-dan çox ölkəsini 75 mindən çox nümayəndə təmsil edir. Bəs, turistlərin ölkəmizə gəlməsi ictimai iaşə obyektlərindəki qiymətlərə necə təsir edib? Qiymətlərdə artım, yoxsa azalma müşahidə olunur? SİA mövzu ilə bağlı DAİR Otellər və Restoranlar Assosiasiyası İdarə Heyətinin sədri Samir Dübəndinin fikirlərini öyrənib. Samir Dübəndinin sözlərinə görə, beynəlxalq təcrübə onu göstərir ki, irimiqyaslı, mötəbər tədbirlərin keçirildiyi destinasiyalarda xidmət sahəsinin qiymətlərində artım müşahidə olur: ”Xüsusilə mərkəzi ərazilərdə çalışan yerləşdirmə vasitələri, restoranlar, kafelər və digər xidmət sahəsinin subyektlərində qiymət artımı baş verir”.

Samir Dübəndi ”Bəs, Cop-29 yekunlaşdıqdan sonra necə? Qiymətlər artacaq, yoxsa azalacaq?” sualını isə belə cavablandırıb: ”Adətən qiymətlər tədbirlərdən sonra normaya qayıdır”.

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700